

*İndi Ermənistan adlanan ərazi, Qərbi Azərbaycan-İrəvan mahalı, Göyçə mahalı, Zəngibasar mahalı tarixi Azərbaycan torpağıdır.*
**Heydər ƏLİYEV**

*Bu gün biz yaxşı bilirik ki, Ermənistan dövləti tarixi Azərbaycan torpağında yaranıb. Zəngəzur, Göyçə mahalı, İrəvan bizim doğma torpaqlarımızdır. Biz qayıdacağıq.*
**İlham ƏLİYEV**


Bir parça daş vətəndir!
*Mahirə NAĞIQIZI*

# YURDUN SƏSİ

№ 11 Avqust 2025-ci il




# Azərbaycan Prezidentinin və Ermənistanın Baş nazirinin Vaşinqton şəhərində keçirilmiş görüşünə dair Birgə Bəyannamə imzalanıb

***Avqustun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan Azərbaycan Respublikasının Prezidentinin və Ermənistan Respublikasının Baş nazirinin Amerika Birləşmiş Ştatlarının Vaşinqton şəhərində keçirilmiş görüşünə dair Birgə Bəyannaməni imzaladılar. AZƏRTAC Bəyannaməni təqdim edir.***

Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikasının Baş nazirinin Amerika Birləşmiş Ştatlarının Vaşinqton şəhərində keçirilmiş görüşünün nəticələrinə dair

## BİRGƏ BƏYANNAMƏ

Biz, Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikasının Baş naziri 8 avqust 2025-ci il tarixində Amerika Birləşmiş Ştatlarının Vaşinqton şəhərində görüşərək aşağıdakıları bəyan edirik:

**1.** Biz və Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş"in razılaşdırılmış mətninin tərəflərin xarici işlər nazirləri tərəfindən paraflanmasına şahidlik etdik. Bu kontekstdə, biz Sazişin imzalanması və yekun olaraq ratifikasiyası üçün əlavə tədbirlərin görülməsinin davam etdirilməsinə ehtiyac olduğunu qəbul edirik və ölkələrimiz arasında sülhün təmin edilməsi və gücləndirilməsinin vacibliyini vurğuladıq;

**2.** Biz, həmçinin Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) Minsk Prosesi və onunla əlaqəli strukturlarının bağlanmasına dair Azərbaycan Respublikasının xarici işlər naziri və Ermənistan Respublikasının xarici işlər naziri tərəfindən ATƏT-ə birgə müraciətin imzalanmasına şahidlik etdik. Biz ATƏT-in bütün iştirakçı dövlətlərini bu qərarı qəbul etməyə çağırırıq;

**3.** Biz regionda və onun qonşuluğunda dövlətlərin suverenliyi, ərazi bütövlüyü və yurisdiksiyasına hörmət əsasında sülhün, sabitliyin və rifahın təşviqi üçün iki ölkə arasında ölkədaxili, ikitərəfli və beynəlxalq nəqliyyatın təmini məqsədilə kommunikasiyaların açılmasının əhəmiyyətini bir daha təsdiq etdik. Bu səylər Azərbaycan Respublikasının əsas hissəsi və onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantını və Ermənistan Respublikası üçün beynəlxalq və ölkədaxili bağlantılar üzrə qarşılıqlı faydaları ehtiva edir;

**4.** Ermənistan Respublikası Ermənistan Respublikasının ərazisində "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) bağlantı layihəsi üçün çərçivənin müəyyən edilməsi məqsədilə Amerika Birləşmiş Ştatları və qarşılıqlı müəyyən edilmiş üçüncü tərəflər ilə əməkdaşlıq edəcəkdir. Biz bu məqsədə ən qısa zamanda nail olmaq üçün xoş niyyətlə səy göstərməyə dair qətiyyətimizi təsdiq edirik;

**5.** Biz BMT Nizamnaməsi və 1991-ci il Almatı Bəyannaməsinə uyğun olaraq, keçmiş münaqişənin əsiri olmayan parlaq gələcək yoluna qədəm qoyulmasına olan ehtiyacı qəbul edirik. Dərin insan iztirablarına səbəb olmuş münaqişədən sonra nəhayət ki, beynəlxalq sərhədlərin toxunulmazlığı və ərazi əldə olunması üçün güc tətbiq etmənin yolverilməzliyi əsasında dövlətlərimizin qonşuluq münasibətlərinin qurulmasına başlaması üçün şərtlər yaradılmışdır. Yenidən təftiş mövzusu olmayan və heç bir zaman olmayacaq bu reallıq dövlətlərimiz arasında düşmənçilik səhifəsinin bağlanmasına yol açır. Biz indi və gələcəkdə hər hansı bir qisas cəhdini qətiyyətlə rədd edir və istisna edirik;

**6.** Biz bu Zirvə görüşünün regionda qarşılıqlı hörmət və sülhün irəlilədilməsi üçün möhkəm təməl təşkil edəcəyinə əminliyimizi ifadə edirik;

**7.** Biz bu vacib Zirvə görüşünə ev sahibliyi çərçivəsində səmimi qonaqpərvərliyə və Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında ikitərəfli əlaqələrin normallaşdırılmasının irəlilədilməsinə vacib töhfələrinə görə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampa dərin minnətdarlığımızı ifadə edirik.

Bu Bəyannamə 8 avqust 2025-ci il tarixində Amerika Birləşmiş Ştatlarının Vaşinqton şəhərində imzalanmışdır.

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

***Nikol PAŞİNYAN***
***Ermənistan Respublikasının Baş naziri***

*Şahidlik etdi:*
***Donald TRAMP***
***Amerika Birləşmiş Ştatlarının Prezidenti***

# Mehriban Əliyevanın doğum günüdür



26 avqust Azərbaycanın birinci xanımı, I vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın doğum günüdür.

Mehriban Arif qızı Əliyeva 1964-cü ilin 26 avqustunda Bakı şəhərində anadan olub.

1982-ci ildə Bakı şəhəri 23 №-li orta məktəbi qızıl medalla bitirərək, N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olub.

1988-ci ildə M. Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu fərqlənmə diplomu ilə bitirib. 1988-1992-ci illər ərzində Moskvada akademik Krasnovun rəhbərliyi altında Göz Xəstəlikləri Elmi-tədqiqat İnstitutunda işləyib.

1995-ci ildə Mehriban Əliyevanın təşəbbüsü ilə hazırda onun rəhbərlik etdiyi Azərbaycan Mədəniyyətinin Dostları Fondu təsis olunub. 1996-cı ildə Mehriban Əliyeva Azərbaycan mədəniyyətinin geniş təbliğ olunması məqsədilə üç dildə (Azərbaycan, ingilis və rus) çap olunan "Azərbaycan - İrs" jurnalını təsis edib.

2002-ci ildə Mehriban Əliyeva Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçilib.

Mehriban Əliyeva həmçinin Heydər Əliyev Fonduna rəhbərlik edir. 2004-cü il may ayının 10-da fondun rəsmi açılışı olub.

2004-cü il avqustun 13-də Azərbaycanın şifahi xalq ədəbiyyatının və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki fəaliyyətinə görə Mehriban Əliyeva UNESCO-nun xoşməramlı səfiri adına layiq görülüb.

2005-ci ildə Azərbaycanda keçirilən sosioloji sorğuya əsasən Mehriban Əliyeva "İlin qadını" adına layiq görülüb.

2005-ci ildə fəlsəfə elmləri namizədi alimlik dərəcəsi alıb.

Sivilizasiyalararası dialoq daxil olmaqla, müxtəlif sahələrdə genişmiqyaslı və fədakar fəaliyyətinə, qayğıya ehtiyacı olan uşaqlara diqqətinə, onların yaşayış şəraitinin yaxşılaşmasına, təhsilə, həmçinin islam aləmində görülən işlərə böyük dəstəyinə görə 2006-cı il noyabrın 24-də ISESCO-nun xoşməramlı səfiri adına layiq görülüb.

2010-cu il noyabrın 7-də Milli Məclisə keçirilən seçkilərdə namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən 14 saylı Xəzər ikinci seçki dairəsindən irəli sürülmüş Mehriban Əliyeva 94,49% (31797 səs) səs toplayaraq deputat seçilib.

2013-cü il iyunun 7-də Yeni Azərbaycan Partiyasının sədr müavini vəzifəsinə seçilib.

2014-cü ilin iyununda Olimpiya dəyərlərinin təbliğindəki xidmətlərinə görə Beynəlxalq Olimpiya Akademiyasının "Olympic Excellence" xüsusi fəxri mükafatı ilə təltif olunub.

Prezident İlham Əliyevin Sərəncamı ilə Mehriban Əliyeva Azərbaycanda mədəniyyətin, təhsilin, səhiyyənin və idmanın inkişafında səmərəli fəaliyyətinə, Azərbaycan xalqının mədəni irsinin beynəlxalq miqyasda geniş təbliğinə və birinci Avropa Oyunlarının təşkilində böyük xidmətlərinə görə "Heydər Əliyev" ordeni ilə təltif edilib.

2015-ci ildə növbəti dəfə eyni dairə üzrə deputat seçilən Mehriban Əliyeva bu dəfə 96,7% (38 029 səs) səs toplayıb.

2016-cı il yanvarın 21-də Avropada idmanın inkişafında göstərdiyi xüsusi xidmətlərə görə Avropa Olimpiya Komitələrinin İcraiyyə Komitəsinin qərarı ilə Avropa Olimpiya Komitələrinin ən yüksək mükafatı olan Ali Orden Mehriban Əliyevaya təqdim edilib.

2017-ci il fevralın 21-də Prezident İlham Əliyevin sərəncamı ilə Mehriban Əliyeva Azərbaycanın Birinci vitse-prezidenti təyin edilib.

Bu təyinatla əlaqədar 6 mart 2017-ci il tarixində V çağırış Azərbaycan Milli Məclisinin deputatı Mehriban Əliyevanın deputat səlahiyyətlərinə xitam verilib.

2019-cu il avqustun 13-də Mehriban Əliyeva Rusiya Prezidenti Vladimir Putinin Fərmanı ilə Azərbaycan-Rusiya münasibətlərinin inkişaf etdirilməsi və möhkəmləndirilməsindəki xidmətlərinə görə Rusiyanın "Dostluq" ordeni ilə təltif olunub.

2021-ci il martın 5-də Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyevin Sərəncamı ilə partiya sədrinin birinci müavini təyin edilib.

Mehriban Əliyeva Prezident İlham Əliyevlə birgə Vətən müharibəsindən sonra mütəmadi olaraq işğaldan azad olunan ərazilərə səfər edir, bir çox açılış və təməlqoyma mərasimlərində iştirak edir. Eyni zamanda bir sıra tarixi abidələrin yenidən bərpa olunmasına öz töhfəsini verir.

# Etnik-tarixi torpaqlarımıza - Qərbi Azərbaycana qayıdış siyasətinə daha bir töhfə

**Bütöv Azərbaycanın yenilənməsi, itirilən tarixi torpaqların geri qaytarılması müxtəlif tarixi dövrlərdə bu dövlətə rəhbərlik edən heç də bütün sərkərdələri düşündürən məsələ olmamışdır. Məlum məsələdir ki, zaman-zaman bu dövlətin torpaqları yadellilər tərəfindən işğala məruz qalmış, əraziləri qəsb olunmuşdur. Bu da günümüzdəki xəritəmizdə əks olunan Azərbaycan dövlətinin əraziləri ilə nəticələnmişdir.**

Biz əgər sovetlər zamanında bu xəritəni birtəhər qəbul edib yaşayırdıqsa da qəlbimiz qan ağlayırdı: balası anasından ayrılan ürəyin göynərtisi ilə yaşayırdıq. Hər bir Azərbaycan vətəndaşının, demək olardı ki, dəruni bir arzusu idi ki, əzəli bütövlük nə zamansa bərpa olunsun. Zaman irəlilədikcə bu arzu qəlblərdə abidələşməyə başlayırdı. Elə bu zamanlarda da mənfur qonşu erməni tayfaları Qarabağın 20 faizini işğala məruz qoydu. Və həmin arzunun yerini bu dəfə də torpaqlarımızın 20 faizinin geri qayıtması arzusu əvəzlədi. Düz otuz il bu arzu ilə yanıb-qovrulan Azərbaycan xalqı məhz Ümummilli Lider Heydər Əliyev siyasətinin məlum otuz ildəki bəhrəsini gördü. Ulu Öndər Heydər Əliyev elə bir rəhbər idi ki, Azərbaycanın əzəli ərazilərinin bərpası onun yenilməz siyasətinin prioritet istiqaməti olmuşdu. Bu siyasətin təməli Ulu Öndər tərəfindən qoyulmuşdusa da, davamçısı da Müzəffər Ali Baş komandan İlham Əliyev idi. Aparılan uğurlu siyasətin bir o qədər də uğurlu davam etməsi otuz illik arzunu gerçəkləşdirdi: işğala məruz qalmış Qarabağ geri qaytarıldı. Bu gün biz torpaqlarını düşməndən azad etmiş qürurlu xalqıq. Biz azadlıq qüruru ilə yaşayırıq... Bəli, bu uğurlu nəticədən sonra əzəli və əbədi ərazilərimiz olan Qərbi Azərbaycana qayıtmaq arzumuz oyanmağa başladı. Niyə də oyanmasın?! Tam haqqımızdır ki, dəfələrlə öz yerindən-yurdundan zorla qovulmuş soydaşlarımız öz doğma el-obalarına qayıtsınlar və mütləq şəkildə öz hüquqlarını orda bərpa etsinlər. Ermənilərin bu ərazilərə köçürüldükləri həmin o tarixi zamandan etibarən bu xalq dəfələrlə müxtəlif zorakılıqlarla öz yerindən çıxarılıb. Məqsəd də Azərbaycan xalqının bu yerlərdən izini silmək, erməninin olmayan qondarma tarixini yaratmaqdan ibarət olub. Və həmin zamanlardan etibarən xalqımızın qəlb dərinliklərində məhz o yerlərə qayıtmaq və yurd-yuvalarına qovuşmaq arzusu yenidən baş qaldırıb. Zaman-zaman da bu istək ciddi və mükəmməl şəkildə formalaşmış siyasətə gətirib çıxarıb: "Qərbi Azərbaycana Qayıdış Konsepsiyası"nı formalaşdırıb. Qeyd edilməlidir ki, məhz bu konsepsiya ilə də rəsmi olaraq 2022-ci ilin dekabr ayının 24-dən etibarən müxtəlif tədbirlər təşkil olunmağa, qərarlar qəbul edilməyə, genişmiqyaslı işlər görülməyə başlamışdı. Və bu işlərin nəticəsi olaraq Qərbi Azərbaycanla əlaqəli olan bütün sahələrdəki gerçək məqamlar, həqiqətlər məqalələrə, kitablara və monoqrafiyalara çevrilərək dünyaya yayılmaqdadır. Onu da əlavə edək ki, bu həqiqətləri dünyaya çatdırmağın ən optimal vasitəsi də məhz onları kitablarda cəmləyərək, müxtəlif



**Mahirə Hüseynova,**
***filologiya elmləri doktoru, professor***



**Zülfiyyə İsmayıl,**
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

dillərə tərcümə edərək dünyaya yaymaqdır. Azərbaycan türklərinin əzəli vətəni olan Qərbi Azərbaycanın ermənilərə sonradan verilməsi ilə bağlı təkcə tarixi faktlar deyil, həm də folklor örnəkləri məlumat verir. Bunları da toplayıb yazıya almaq ən azından sözügedən siyasətə ayna tutmaq, dəstək olmaqdır. Buranın köklü insanları olan soydaşlarımızla görüşərək onlarla söhbət aparkən hətta ağlagəlməz həqiqətlər də ortaya çıxa bilir. Bu baxımdan qərbi azərbaycanlı soydaşlarımızla həmin görüşlər mütəmadi şəkildə aparılmalıdır.

Qərbi Azərbaycandan sonuncu deportasiya zamanı çıxarılmış soydaşlarımız Azərbaycanın bir çox ərazilərində, eləcə də Naxçıvanın rayon və kəndlərində də məskunlaşıblar. Onların hətta kompakt yaşadıqları Parağa, Gömür, Çalxanqala və s. kimi kəndlər də vardır. Bu insanlar yaşadıqları ərazilərdə öz adət-ənənələrini qorumağa çalışıblar və demək olar ki, buna nail olublar da. Yəni Azərbaycanın şərq hissəsi öz övladlarına ürəkaçıqlığı ilə qucaq açıb. Düzdür, isti ocağından qovulan bu insanlar bu tərəfdə də bir çox məhrumiyyətlərlə qarşılaşıblar, bəzi hallarda o çatışmazlıqların müəyyən hissəsi ilə bu gün də birgə yaşamaqdadırlar. Lakin onlar üçün vətən adlı həsrətdən və acıdan çətin başqa bir hiss, duyğu yoxdur. Doğma yurd həsrəti bu insanların ən böyük dərdi, ən ağır yarasıdır.

Qərbi azərbaycanlılarla mütəmadi görüşərək onlarla söhbətlər təşkil edən ziyalılardan biri də filologiya üzrə fəlsəfə doktoru, dosent Aytən Cəfərovadır. Qeyd edək ki, Aytən Cəfərova AMEA Naxçıvan Bölməsinin əməkdaşı olmaqla yanaşı, Qərbi Azərbaycan İcmasının Ordubad rayonu üzrə nümayəndəsi kimi də fəaliyyət göstərir. Onun təşkil etdiyi görüşlərin nəticəsi təkcə rəsmi hesabat və sənədlər üzərində qalmır. A.Cəfərova bu görüşlərdən aldığı təəssüratları publisistik, yeri gəldikdə də elmi məqalələrə çevirərək geniş oxucu auditoriyasına təqdim edir. Nəticə etibarilə, bununla ikinci hissədir ki, "Qərbi Azərbaynın etno-mədəni mühiti: tədqiqlər, xatirələr, faktlar" kitabı işıq üzü görür. Kitabın I hissəsindəki ənənə, demək olar ki, II hissədə də davam etməkdədir. Yəni dosent Aytən Cəfərova Qərbi Azərbaycandan toplanılan folklor örnəkləri üzərində apardığı elmi tədqiqatını məqaləyə çevirərək bu kitabda da təqdim edir. Eləcə də qərbi azərbaycanlı soydaşlarımızla apardığı görüşləri məqalələrə daşıyaraq kitaba daxil edir. Bu bölmə kitabın II hissəsində "Yaddaşlarda qorunan etno-milli tarix" adlanır. Kitabın maraqlı və bir o qədər də önəmli hissəsindən biri də Qərbi Azərbaycandan deportasiya olunmuş soydaşlarımızdan toplanılmış folklor örnəklərinin təqdim edildiyi hissə "Qərbi Azərbaycanın hikmət xəzinəsindən" adlı ikinci hissəsidir. Üçüncü hissə isə "Saz tutub, söz qoşub Vətən deyərəm" başlığı altındadır. Bu hissədə yenə də ilk kitabdakı ənənəyə sadiqlik müşahidə olunur, beləki, burada biz Qərbi azərbaycanlı saz-söz insanlarının poetik dünyası ilə tanış oluruq. Bu dəfə də həmin hissədə Dərələyəz mahalının istedadlı övladı Bəylər Xanlaroğlunun şeirləri təqdim olunur.

Əvvəldə də bəhs etdiyimiz kimi, Qərbi Azərbaycanla bağlı yazılan nəinki kitab və monoqrafiya, hətta hər kiçik məqalə, çox önəmli və dəyərlidir. Çünki bu əsərlər Qərbi Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasına ən yaxşı vəsilədir. Dosent Aytən Cəfər qızı Cəfərovanın "Qərbi Azərbaycanın etnomədəni mühiti, tədqiqlər, xatirələr və faktlar" II kitabı da Qərbi Azərbaycana Qayıdışla bağlı Azərbaycan Respublikasının Prezidentinin imzaladığı sərəncam və verdiyi fərmanlar işığında görülmüş işlərin nəticələrindən biri olaraq Qayıdış Konsepsiyasına dəyərli töhfədir.

# İrəvan ziyalılarından Mirzə Abbas Məmmədzadə

***Qədim və orta əsrlərdən özünəməxsus elm və təhsil ənənələrinə malik olan İrəvan şəhəri ictimai-pedaqoji, ədəbi-bədii fikir tariximizə parlaq şəxsiyyətlər bəxş etmişdir. Tariximizdə silinməz iz salmış həmin şəxsiyyətlərin hər birinin fəaliyyətini, yaradıcılıq irsini vərəqlədikcə qürur hissi keçirirsən ki, xalqımızın ictimai-siyasi və elmi-mədəni inkişafında böyük rol oynamış belə fikir və düşüncə nəhənglərimiz olub. XIX əsrin sonu və XX əsrin əvvəllərində xalqımızın milli zəkasının parlaq nümayəndələrindən biri də Mirzə Abbas Məmmədzadə olmuşdur.***

Mirzə Abbas Məhəmməd oğlu Məmmədzadə 1846-cı ildə İrəvan şəhərində anadan olmuşdur. O, əvvəlcə İrəvanda mədrəsədə təhsil almış, sonra isə təhsilini İsfahan şəhərində davam etdirmişdir. O, İsfahan şəhərində ali dini təhsil aldıqdan sonra İrəvana qayıdır və məktəbdarlıqla məşğul olur. Mirzə Abbas İrəvanda fəaliyyət göstərən xüsusi məktəblərdə, təhsil müəssisələrində, Naxçıvandakı "Rüşdiyyə" məktəbində ərəb və fars dillərindən dərs demişdir. Mirzə Abbas 1906-1910-cu illərdə oğlu Mirzə Cabbarın təşəbbüsü ilə İrəvanın Daşlı küçəsində açılan III dərəcəli məktəbdə ilahiyyat və tatar dilini tədris etmiş və 1917-ci ildə Qafqaz Təhsil Dairəsi tərəfindən İrəvanda açılan müəllimlər kursunda dərs demişdir. İrəvanda xalq müəllimi kimi tanınan Mirzə Abbas maarif və mədəniyyət çırağının işığı ilə cəhalət və nadanlıq zülmətini yararaq bütün ğüvvə və istedadını milli ruhun oyanışına, ilk dünyəvi məktəblərin yaranmasına, mədəniyyətin, maarifin, elmin inkişafına həsr etmişdir. Onun "Samoučitelŭ farsidskoqo əzıka dlə russkix" adlı kitabı 1912-ci ildə Bakıda Orucov qardaşlarının mətbəəsində nəşr olunmuşdur. Mirzə Abbas Məmmədzadənin 1913-cü ildə İrəvandakı "Budaqov" mətbəəsində "Bədrağatül-ətfal" ("Balalara hədiyyə") kitabı nəşr olunmuşdur. O, "Güldəstə" əsərlərini fars dilində yazmışdır. Böyük ədəbiyyatşünasalim Əziz Şərifin aşağıdakı fikirləri Mirzə Abbas Məmmədzadəni daha



**Cəlal Allahverdiyev,**
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

dolğun şəkildə xarakterizə edir: "İrəvanda pansionda yaşayan zaman atam mənə xüsusi fars müəllimi tapmışdı. Bəxtimdən mənim İrəvandakı müəllimim olduqca bilikli və təcrübəli imiş. Cabbar bəy Məmmədovun atası Molla Abbas İrəvanda yaşayırdı. Fars dilinin mütəxəssisi olduğu üçün "Fars Abbas" adı ilə şöhrət tapmışdı. Həman Fars Abbas İrəvanda mənim xüsusi müəllimim oldu. O zaman farsca təlim kitabı əvəzinə fars klassik ədəbiyyatından dərs verilirdi. Mənim müəllimim təlim üçün Sədinin "Gülüstan"ını seçmişdi. Ərəb əlifbasını mən artıq öyrənmişdim və sərbəst oxuyub-yaza bilirdim. Buna görə də "Gülüstan"ı oxumaqda çətinlik çəkmirdim. "Gülüstan"ı səhifədən-səhifəyə oxuya-oxuya tərcümə edib, hər cümləsini, hər sözünü təhlildən keçirə-keçirə, daxili mənasını aydınlaşdıra-aydınlaşdıra, şeirlərini isə əzbərləyərək irəliləyirdik. Eyni zamanda mənim unudulmaz, qocaman müəllimim fars dilinin sərf-nəhvini də mənə öyrədir, feillərə aid çətin qanunları mənə əzbərlədirdi. İrəvanda Molla Abbasın bir il müddətində mənə verdiyi dərslər, əzbərlətdiyi şeirlər bu gün də yadımdadır və dərin təşəkkürlə etiraf etməliyəm ki, mənim bu gün farsca az-çox oxuyub-yazmağıma bais, ilk növbədə, haman dərslərdir". O, 1918-ci ilə kimi xalq maarifi və bir sıra dərsliklərin hazırlanması sahəsində fəal çalışır, bəzi tədris və ədəbi materialları Azərbaycan dilinə tərcümə edir. Mirzə Abbas fars dilini kamil bildiyi üçün ona "Fars Abbas" deyərmişlər. O, eyni zamanda, ərəb və rus dillərinin də gözəl bilicisi olub.

"Razi" təxəllüsü ilə klassik üslubda, ədəbi-bədii cəhətdən kamil şeirlər yazan Mirzə Abbas təkcə İrəvan şəhərində deyil, onun hüdudlarından kənarda da maarifçi, tərcüməçi, istedadlı şair, geniş dünyagörüşünə malik işıqlı şəxsiyyət kimi şöhrət qazanmışdır. Mirzə Abbas fars, ərəb və rus dillərində şeirlər yazmışdır. Şeirlərini "Razi" təxəllüsü ilə yazdığına görə "Abbas Razi" kimi də tanınırdı. Müstəsna yaradıcılıq məharəti, misilsiz təfəkkürü, əhatəli dühası ilə insan qəlbini fəth etməyə qadir olan böyük sənətkar Abbas Məmmədzadə haqlı olaraq maarifimiz və ədəbiyyatımızda Fars Abbas, Mirzə Abbas, Abbas Ağa, Molla Abbas, Abbas Razi kimi tanınmışdır.

Mirzə Abbas Məmmədzadənin Azərbaycan mətbuatı tarixində də özünəməxsus xidmətləri vardır. O dövrdə Bakı, Tiflis, Naxçıvan ziyalıları ilə sıx əlaqə saxlayan Mirzə Abbas o dövrün "Ziya" qəzeti ilə də əməkdaşlıq edir və sonra onun İrəvan bölgəsi üzrə müvəkkili olur. Jurnalist fəaliyyətinə "Ziya" qəzetindən başlayan Mirzə Abbas Məmmədzadənin Cənubi Qafqazın və digər ölkələrin müxtəlif dillərdə çıxan qəzetlərində İrəvanın ictimai-mədəni həyatı haqqında publisist yazıları çap olunmuşdur.

*(Ardı səh.3-də)*

# Xankəndidə təşkil olunan Diaspor Gənclərinin VI Yay Düşərgəsi

## *Düşərgə çərçivəsində "Qərbi Azərbaycan İrsi" kitabının I cildinin təqdimatı keçirilib*






***Tədbirdə Qərbi Azərbaycan İcması Müşahidə Şurasının sədri, AMEA-nın müxbir üzvü, fizika-riyaziyyat elmləri doktoru, professor Misir Mərdanov, Qərbi Azərbaycan İcması İdarə Heyətinin üzvü, tarix üzrə fəlsəfə doktoru Nazim Mustafa, Qərbi Azərbaycan İcması Ziyalılar Şurasının üzvü, Milli Məclisin deputatı Sahib Alıyev, Qərbi Azərbaycan İcmasının fəxri üzvü, İrəvan xanının nəslinin nümayəndəsi, xanlığın tədqiqatçısı Əmir Əli Sərdari İrəvani və Qərbi Azərbaycan İcmasının Aparat rəhbəri, sənətşünaslıq üzrə fəlsəfə doktoru Qalib Qasımov iştirak edib.***

Təqdimatda Qərbi Azərbaycan torpaqlarının tarixi, oradakı maddi-mədəni irs və azərbaycanlıların bu bölgədəki çoxəsrlik varlığı barədə geniş məlumat verilib. Bu irsin qorunub saxlanmasının və gələcək nəsillərə ötürülməsinin vacibliyi qeyd olunub. "QƏRBİ AZƏRBAYCAN İRSİ: Ermənistanda azərbaycanlıların maddi-mədəni irsinin – qəbiristanlıqların sistemli qaydada dağıdılmasının nəticələri və beynəlxalq hüquqi məsuliyyətə dair hesabat və materiallar" kitabının tariximiz və mədəniyyətimizin mühüm daşıyıcısı olduğu vurğulanıb. Bildirilib ki, kitab Qərbi Azərbaycandan deportasiya olunmuş soydaşlarımızın hüquqlarının və tarixi yaddaşının qorunması baxımından əhəmiyyətli mənbədir. Kitabın diaspor gənclərinə təqdim olunması onların bu sahədə tarixi biliklərinin artırılmasına və həqiqətlərimizi dünya ictimaiyyətinə çatdırmalarına böyük imkan yaradır.



*"Qərbi Azərbaycan İrsi" kitabının I cildinin təqdimatı keçirilib*

Tədbirdə azərbaycanlıların deportasiyasına həsr olunmuş "Qərbi Azərbaycan irsi" tədqiqatlar seriyasından sənədli videoçarx nümayiş etdirilib.

Diaspor gəncləri mövzuya böyük maraq göstərib və ekspertlərə çoxsaylı suallar ünvanlayıblar.

Sonda fərqlənmiş iştirakçılara hədiyyə və kitablar təqdim olunub.

# İrəvan ziyalılarından Mirzə Abbas Məmmədzadə

***(Əvvəli səh.2-də)***

Qərbi Azərbaycanda ilk azərbaycanlı jurnalistlərdən biri olan Mirzə Abbas Məmmədzadə "Ziya" qəzetinin İrəvanda yayılmasında əsl fədakarlıq göstərmişdir. 1879-cu illərdə Tiflisdə çıxan "Ziya" qəzetinin nəşrinin elə ilk vaxtlarındaca üzləşdiyi maddi çətinliyi Mirzə Abbas Məmmədzadə böyük narahatlıq hissi ilə qarşılamışdı. Həmin vaxtlarda qəzetə maddi yardım göstərənlərdən, "Ziya"nın üzləşdiyi maliyyə problemini özü ilə bölüşmək istəyənlərdən ən birinci təşəbbüsü göstərən Abbas Məmmədzadə olmuşdur. Dövrü mətbuatın xalqın maarif və mədəniyyətinin tərəqqisində oynadığı mütərəqqi rolunu aydın dərk edən bu maarifpərvər şəxsiyyət "Ziya" qəzetinə maddi dəstək üçün Qafqaz canişinliyinin Baş İdarəsinə 50 manat pul və məktubu bu orqanın naşiri Səid Ünsizadənin adına, farsca yazılmış bir məktub göndərir. Səid Ünsizadə Abbas Razinin farsca yazılmış bu məktubunu qəzetin 13 sentyabr 1879-cu il tarixli sayında eynilə çap etməklə onun bu milli təəssübkeşliyini oxucuların nəzərinə çatdırmışdır. Qəzetdə dərc edilmiş həmin məlumatla tanış olan Seyid Əzim Şirvani Abbas Razinin mətbuat yolundakı bu fədakarlığını, xeyirxahlığını təqdir edərək "Ziya" qəzetinə "İrəvanlı Abbas Ağa haqqında" başlığı ilə ona xüsusi şeir həsr etmiş, onu "əhli-məna sərvəri", "müini-əhli-ürfan" adlandırmışdır. S. Ə. Şirvani onun milli təəssübkeşliyini böyük hərarətlə alqışlayaraq başqalarına örnək göstərmişdir. Qəzetin naşiri Səid Ünsizadə həmin şeiri "Ziya" qəzetinin 11 oktyabr 1879-cu il tarixli 38-ci nömrəsində dərc etdirmişdir.

*Mərhəba, ey İrəvanın xaki-zibamənzəri -*
*Kim, gəlib səndən vücudə əhli-məna sərvəri.*
*Mərhəba, ey İrəvan, ey məcməül-bəhreyn-əsər,*
*Bəhrsən, Abbasi-namavər o bəhrin gövhəri.*
*Gövhəri-qabil, müini-əhli-ürfan, feyzi-həq -*
*Kim, olubdur zatı bir alicənabın yavəri.*
*Eyləyib himmət "Ziya" haqqında ol xurşidfər,*
*Ta "Ziya" olsun cahanda əhli-həqqin rəhbəri.*
*Aləmə acsın zəbani-pənd, töksün dürrlər,*
*Zöhrəvü Xürşidü Məh olsun o dürrə müştəri.*
*Mərhəba, ey sahibi-himmət Məhəmmədzadə kim,*
*Sən bu imdad ilə şad etdin dili-peyğəmbəri.*
*Çün qəzetdən şad olur əhli-səvadi-ruzigar,*
*Sən onu ehya edib, şad eylədin aləmləri.*
*Sən təki bir beş nəfər qeyrətkeş olsaydı əgər,*
*Çəkməz idik aləm içrə minnəti-gavü xəri.*
*Gər qəzet qədrin hələ bilməzsə bu qövm, eybi yox,*
*İbtidadə hər işi, ari, sanırlar sərsəri.*
*Ibtida Musanı təkzib etdi qövmi-Qibtiyan,*
*Bildilər gövsaləni məbud qövmi-Samiri.*
*Aqibət öz nurini izhar qıldı ləmyəzəl,*
*Oldular öz zatlər hər eybü nöqsandan bəri.*
*Bilməsə nadan qəzet qədrin, əzizim, nəqsi yox,*
*"Qədri zər zərgər şünasəd, qədri cövhər cövhəri".*
*Əhli-ürfana müin olmaq kamal istər özü,*
*Bikəmalın yox kəmal əhlilə meyli-xatiri.*
*Nükteyi-"mən ləm yərək ləm yörifə" ol qutəbər,*
*Ta sənə ol nüktə açsın bir mütəvvəl dəftəri.*
*Sən qəzet tərcihinə aləmləri təhris edib,*
*Aləmi tutdun əziz, aləmdə xar etdin zəri.*
*Pul əziz olmuş cahan əhlinə ol qayətdə kim,*
*Ta sanıllar əskinası Cəbrəilin şəhpəri.*
*Puldurur məbudu bu xəlqin, nə lazım mərifət,*
*Simi "ya səttar!" oxurlar, zərrə derlər təngəri.*
*Seyyida, Abbasə qıl daim dua kim, ol cavan*
*Həzrəti-Əbbas ilə məşhur görsün məhşəri.*
*Düşməni-Əbbas ola daim əbusən-qəmtərir,*
*Görməsin əhbabı üqbadə şərari-Azəri.*

Onu da qeyd edək ki, həmin dövrdə İrəvan ədəbi-mədəni mühitinin aparıcı nümayəndələrinin Mirzə Abbas Məmmədzadə başda olmaqla dövrü mətbuatdakı çıxışlarının sədaları təkcə Azərbaycan ədəbi mühitinə deyil, Yaxın Şərqə də gedib çıxırdı. Bu illərdə Mirzə Abbas Məmmədzadə, Cəlal və Səid Ünsizadə qardaşları, Firudin bəy Köçərli, Hüseyn Cavid, Abbas Səhhət, Abdulla Şaiq və digər ziyalılarla sıx yaradıcılıq əlaqələrində olmuşdur. Araşdırmalardan aydın olur ki, Azərbaycanda yaşayıb-yaradan bəzi ziyalıların məqalələrini və əsərlərini fars dilinə Mirzə Abbas Məmmədzadə tərcümə edib. Ümumiyyətlə, müxtəlif şəhərlərdə yaşayan azərbaycanlı ziyalıların yaradıcılıq əlaqələrini və epistolyar nümunələrini araşdırmaq həm də həmin dövrün ədəbi-mədəni və ictimai mühitini öyrənmək baxımından olduqca əhəmiyyətlidir. Məlumat üçün onu da qeyd edək ki, bu vaxtadək Mirzə Abbas Məmmədzadənin və eləcə də başqa irəvanlı ziyalıların Azərbaycan və xarici Şərq mətbuatındakı ədəbi-maarifçi və publisistik fəaliyyətləri ilə bağlı lazımınca tədqiqat işləri aparılmamışdır. Halbuki onların ədəbi-maarifçi fəaliyyətlərinin işıqlandırılması olduqca vacib və zəruridir.

Abbas Məmmədzadə 1918-ci ildə ermənilərin azərbaycanlılara qarşı törətdikləri total qırğınlar zamanı qəddarcasına qətlə yetirilməkdən xilas olmaq üçün öz doğma ocağını tərk edərək Təbriz şəhərinə pənah gətirir və burada sığınacaq tapır. 1918-ci ildə qaçqınlıq taleyi yaşayan Mirzə Abbas 1919-cu ildə Təbriz şəhərində dünyasını dəyişir və buradakı "Gülüstan" qəbristanlığında dəfn olunur.

# Qərbi Azərbaycan İcmasının üzvlərindən

Möhtərəm cənab Prezident,

Zati-alinizin dəmir yumruğu, qətiyyətli siyasi iradəsi, yüksək sərkərdəlik məharəti, Azərbaycan xalqının birliyi və qəhrəman Ordumuzun yenilməz gücü sayəsində Vətən müharibəsində qazandığınız şanlı Zəfər Azərbaycanı dünya dövlətləri sırasında layiqli məqama yüksəltdi. Böyük Zəfərdən sonra müstəqillik tariximizdə ilk dəfə əldə edilən dövlət suverenliyi Azərbaycanın qalib ölkə kimi nüfuzunu daha da artırdı və Vətənimizi sülh, etimad ünvanına çevirdi.

2025-ci il avqustun 8-də Amerika Birləşmiş Ştatlarında əldə etdiyiniz böyük nailiyyətlər isə suverenlik tariximizin yeni və ən möhtəşəm uğurlarından biri oldu. Ölkəmizə qarşı 33 il bundan öncə qəbul edilmiş qərəzli 907-ci düzəliş Zati-alinizə hörmətin ali təcəssümü olaraq məhz Sizin iştirakınızla ləğv edildi, Azərbaycan ilə ABŞ arasında strateji tərəfdaşlığın qurulması üçün önəmli addımlar atıldı. Həmçinin ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycanla Ermənistan arasında məhz Sizin təşəbbüsünüzlə bağlanılacaq sülh müqaviləsi üçün önəmli Bəyannamə imzalandı, Azərbaycanı Naxçıvanla birləşdirəcək Zəngəzur dəhlizi - "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"nun açılması və digər mühüm məsələlər razılaşdırıldı.

Qazanılan bu nailiyyətlər dünya ictimaiyyətinin gözü qarşısında baş verdi və Zati-alinizin təkcə Azərbaycan üçün deyil, bütün Qafqaz regionu və Türk dünyası üçün çalışdığına hər kəs şahidlik etdi.

Zati-alinizin siyasi iradəsi nəticəsində əldə edilən bu uğurlar Qafqazda davamlı sülhün təmin edilməsi istiqamətində həlledici addım, bölgənin bütün xalqları üçün firavanlığın təmin olunmasına ən böyük töhfə oldu.

Sizi ABŞ səfəri zamanı əldə etdiyiniz böyük uğurlar münasibətilə Qərbi Azərbaycan İcmasının üzvləri adından ürəkdən təbrik edir, bu müqəddəs yolda Zati-alinizə böyük zəfərlər arzulayır, Uca Tanrıdan Sizə Azərbaycanın daha da güclənməsi, insanlarımızın rifahı naminə gördüyünüz taleyüklü işlərdə böyük nailiyyətlər, cansağlığı diləyirik.

*Dərin hörmətlə,*

***İdarə Heyətinin sədri,***
***Milli Məclisin deputatı Əziz Ələkbərov***
***Müşahidə Şurasının sədri,***
***AMEA-nın müxbir üzvü***
***Misir Mərdanov***
***Nəzarət-Təftiş Komissiyasının sədri,***
***professor Vahid Novruzov***
***Ağsaqqallar Şurasının sədri,***
***Milli Məclisin deputatı, akademik***
***Əhliman Əmiraslanov***
***Qadınlar Şurasının sədri,***
***Milli Məclisin deputatı***
***Məlahət İbrahimqızı***
***Ziyalılar Şurasının sədri,***
***professor Elxan Hüseynov***
***Gənclər Şurasının sədri,***
***Milli Məclisin deputatı Şahin İsmayılov***
***Qəyyumlar Şurasının sədri***
***Mürvət Həsənli***

*Azərbaycan Respublikası, Bakı şəhəri*

# Türkiyə arxivlərində irəvanlılar

**Ötən əsrin əvvəllərindən 1930-cu illərə qədər tarixi torpaqları olan İrəvan bölgəsində yaşayan Azərbaycan türklərinin bir qismi erməni və rus zülmünə məruz qaldıqları üçün Türkiyə ərazisinə köç ediblər. Bu mühacirlərə qucaq açan, onları müxtəlif bölgələrə yerləşdirən Türkiyə hökumətinin arxivlərində həmin köçlərlə bağlı müxtəlif sənədlər mövcuddur. Onlardan bəzilərini xronoloji ardıcıllıqla bu yazımızda təqdim edirik.**



**Dilqəm Əhməd,**
***İstanbul Universitetinin doktorantı***

1915-ci ilə aid bir sənəddə irəvanlı Musa Kazım adlı şəxsə Osmanlı təbəəliyinə keçməsinə izn verildiyi qeyd olunub.

9 fevral 1921-ci il tarixli bir sənədə görə İrəvan mühacirlərinin bir qismi Muş şəhərinə köçürülüb.

3 may 1921-ci il tarixli sənəddə irəvanlı türk sənətkarların ailələri ilə birlikdə Türkiyəyə göndərilmələrindən bəhs edilib.

27 mart 1923-cü il tarixli sənəddə Qafqaz bölgəsindən və İrəvandan Türkiyəyə köçmək istəyən şəxslərin sərhəddən içəridə uyğun bir yerə yerləşdirilməsi ilə bağlı qərar verilib.

29 sentyabr 1923-cü il tarixli sənədə görə, İstanbulda "Gülhane" müsafirxanasında yaşayan İrəvan və Gəncə əhalisindən Cəlil və Zeynəbə İzmirə getmələrinə icazə verilib.

28 fevral 1924-cü il tarixli sənədə görə, Ərzurumda yaşayan İrəvan qaçqınlarından 6 nəfər Türkiyə vətəndaşlığına qəbul edilmələri üçün müraciət edib.

1925-ci ilə aid bəzi sənədlərdə irəvanlı qaçqınlardan İsmayıl Zeynəlzadə, Həsən oğlu İnafi ağa (Gözəldərədən), Cəfər oğlu Şeyx Məhəmməd, Əli oğlu Murad ağa (Gözəldərədən), Hacı Abbaszadə oğlu Tağı əfəndi, İmamverdi oğlu Musa ağa, Ələkbər oğlu Xızır ağa, Dəmirbulaq kəndindən Mirsadıq, Mirfətullah, Mirməhəmməd əfəndilər, Məhəmmədəli oğlu Tağı ağa, İbrahim oğlu Sultan ağa, Mirmehdi oğlu Mirsəlim, Seyid Məhəmməd oğlu Seyid Səid ağa (Gözəldərədən), Məhəmmədəli oğlu Abbas əfəndi, Tacir oğlu Həsən (Gözəldərədən), Hüseyn oğlu Vəli Yusifzadə, İbrahim Abdulla oğlu, İbrahim oğlu Əhməd Cəfərzadə, Hüseyn bəy oğlu İsmayıl bəy, Hacı Məhəmməd Rəcəbzadə, Bayram oğlu Məhəmməd ağa (Gümrüdən), Kərbəlayi Abbas oğlu Muqtəla (Gözəldərədən), Hacı Hüseyn oğlu Dünyamalı (Gözəldərə), Dursun oğlu Xəlil əfəndi (Gözəldərədən), Mərd oğlu Muhibəli ağa, Əli oğlu Hüseyn ağa, Gülbahar xanım, Bərxudar oğlu Məhəmmədvəli (Gözəldərədən), Məhəmməd oğlu Yusif, İsmayıl oğlu Həsən ağa (Gözəldərədən), Mənsur oğlu Salman ağa, Qasım oğlu Hüseyn ağa (Gözəldərədən), Qəhrəman oğlu Əşrəf Dadaşzadə (Gözəldərədən), Sadıq oğlu Abbas, Musa oğlu Kazım ağa, Ağazadə Zeynəlabidin, Təkman oğlu Nəbit ağa (Gözəldərədən), Qafar oğlu Abbas ağa, Məşədi Tağı oğlu Məşədi Məhəmməd, Rza oğlu Vəli ağa (Gözəldərədən), Hümmət oğlu Vəli ağa, Abbas oğlu Məhəmməd ağa, Qəhrəman oğlu Məhərrəm ağa (Gözəldərədən), Kərbəlayi oğlu Məşədi Əsgər ağa İrəvanda tərk etdikləri ev və qiymətli əşyaları ilə bağlı Türkiyə hökumətinə müraciət ediblər, təzminat istəyiblər. Siyahıdan göründüyü kimi bu şəxslərin əksəriyyəti İrəvanın ağa və seyidləri olublar.

10 may 1926-cı il tarixli sənədə görə, Trabzonda yaşayan və köməyə ehtiyacı olan İrəvan qaçqınlarından Nadir adlı şəxsin orada məskunlaşmasına izn verilib.

29 noyabr 1927-ci il tarixli sənədə görə, Balıkesir şəhərində yaşayan İrəvan mühacirlərindən Abdulla oğlu Ömər başqa bir şəhərə yerləşdirilməsini hökumətdən xahiş edib.

15 dekabr 1927-ci il tarixli sənədə görə, İrəvandan İğdır şəhərinə sığınan Məsumoğlu Camala qaçqın statusu verilib.

16 fevral 1928-ci il tarixli sənədə görə, İrəvandan Bəyazid bölgəsinə mühacir axını olub.

1928-1930-cu illərə aid üç sənəddə irəvanlı Vəli Babazadənin İrəvanda müsadirə edilən əmlakı ilə bağlı məlumatlar verilib.

18 fevral 1929-cu il tarixli bir sənəddə İlməzli, Qarakilsə, Qaraqala, Soyuqbulaq kəndlərində yaşayan türklərin Türkiyəyə mühacirəti ilə bağlı məlumat verilib.

23 dekabr 1929-cu il tarixli sənəddə irəvanlı Cəfər Məhəmmədzadəyə verilən evlə bağlı hüquqi işlərin tamamlandığı bildirilib.

11 may 1936-cı il tarixli sənəddə İrəvanın Dərəli kəndindən olan, 1935-ci ildə Türkiyəyə sığınan Əliqulu Yusif oğlunun Denizli vilayətinin mərkəzinə yerləşdirilməsinə qərar verilib.

16 may 1938-ci ilə aid bir sənəd Türkiyədə soyad qanununa görə Qaraçanta familiyasını qəbul edən irəvanlı Heydər Abbas oğlu Haqverdiyevlə bağlıdır. Bu bəlgəyə görə, Qarsın Bülbül məhəlləsində yaşayan Heydər Qaraçanta Gümrü qəzasının Ağbaba nahiyəsinin Qaraçanta kəndində yaşayıb. O, 1928-1929-cu illərdə İrəvandakı Nəriman Nərimanov adına Türk Pedaqoji Texnikumunu bitirib.

22 noyabr 1939-cu ilə aid bir sənəddə İğdırda su işləri məmuru olaraq çalışan Rza Yalçın adlı şəxslə bağlı məlumat verilib. Sənəddən məlum olur ki, İrəvanda yaşayarkən İsmixanov soyadını daşıyan Rza bəy 1920-ci ildə İrəvan Gimnaziyasını bitirib və 312 nömrəli lisey şəhadətnaməsi əldə edib. Bəlgəyə görə, Rza bəy bir müddət İranda da mühacir həyatı yaşayıb.

İstanbul və Qarsda dəfn edilən irəvanlılar

İstanbulda "Seyid Əhməd dərəsi" məzarlığında və Qarsdakı "Yeni məhəllə Əsri" məzarlığında mühacir irəvanlılara aid məzarlar mövcuddur. Bu iki məzarlıqda apardığımız tədqiqatlar nəticəsində dəfn edilənlərin bəzilərinin siyahısını hazırlamışıq.

"Seyid Əhməd dərəsi" məzarlığında dəfn olunan irəvanlılar bunlardır:

**1. Tahir Mehmandarlı (1918-03.04.1977, Türkiyədə müxtəlif yerlərdə ağır cəza hakimi olaraq çalışıb);**

**2. Çobankərəli Cəfər oğlu Həsən (1314-1976);**

**3. Çobankərəli Qazaxlardan Əli oğlu Cəfər Baykan (1862-28.06.1977);**

**4. İrəvan qəmərlilərindən Hacı İbrahim Novruz xan (1891-11.03.1971);**

**5. İrəvan qəmərlilərindən Hacı İbrahim Novruz xanın oğlu Mehmet Teyfik (05.06.1924-11.09.1993);**

**6. İrəvanlı Ağa qızı Zəliha Temel (1338-1986);**

**7. İrəvanlı Ağbaba oğullarından Əbdülhüseyn Temel (1326-09.12.1982);**

**8. İrəvanlı Əli Əkbər qızı Xədicə Okçuoğlu (1896-1988);**

**9. İrəvanlı Mehmet oğlu Əli Aslan (27.04.1923-26.07.1976);**

**10. İrəvanlı Mehmet Zəngi (1899-26.02.1967);**

**11. Rəvanlı Zeynalabidin Qazax (1900-1971).**

"Seyid Əhməd dərəsi" məzarlığında gəzərkən təsadüfən iki məzar arasında torpağa batmış və yox olmaq üzrə olan məzar daşınının torpaq dolu üst təbəqəsini təmizlədikdən, su ilə yuduqdan sonra bu yazını oxuya bilmişdik:

"Huvel Baki.
Zair bu mezar bir abide-i yesi kederdir.
Bir genc güzelin göz yumarak yattığı yerdir.
Bir gönçe iken açmadı bir gün soluverdi.
Anne-babanın matemi ta göğlere erdi.
Tevellüdü 1907. Azeri Türk mühacirlerinden erivanlı Celil mahdumu nakam Asger efendinin ruhuna fatiha".

İtmək üzrə olan bu məzar da irəvanlı bir mühacirin oğluna aid imiş.

Qarsda dəfn olunan bəzi irəvanlılar:

1. İrəvan mühacirlərindən Qəmbər oğlu Əli Əkbər Akkuş;
2. Rəvan mühacirlərindən Əli oğlu Rza Sadak (1295-1963);
3. İrəvan mühacirlərindən Məmməd qızı Tükəzban Aşkın (vəfatı 1969);
4. İrəvan mühacirlərindən Əhməd oğlu Həsən Aşkın (vəfatı 1963);
5. Gümrü mühacirlərindən Məşədi Məhərrəm qızı Leylan (1307-17.06.1965).

Qarsdakı bu məzarlıqda Güllübulaq, Gözəldərə, Molla Musalı, Qarakilsə kimi kəndlərin adları yazılan, eləcə də Gümrüdən olduğu qeyd olunan xeyli məzarlar da mövcuddur. Ehtimal ki, onlar da Qərbi Azərbaycanın kəndlərindən Qarsa köçən şəxslərə aiddir. Bu məzarlıqda irəvanlı seyidlərə aid də qəbirlər mövcuddur. İrəvanlı axund Hacı Axund Malik Məhəmməd İşıqlının (1889-1979), Eşnək seyidlərindən Mirhəşim oğlu Hacı Mirqasım Erdemin (1327-25.05.1971) də son mənzilləri həmin məzarlıqdır.

Nəticə olaraq qeyd edək ki, Qərbi Azərbaycan bölgəsindən Türkiyəyə olan köçlər ayrıca bir tədqiqat mövzusudur; geniş araşdırılmalı, Türkiyə arxivlərindəki bütün sənədlər tədqiqata cəlb edilməlidir.

# Ata-baba yurdumuz - Qərbi Azərbaycan

***Qərbi Azərbaycan ərazisi bütöv Azərbaycanın ən qədim, təbiətinə görə ən zəngin bölgələrindən biridir. Keçmişdə Azərbaycanın şimalı ilə cənubunu, bütün Qafqazla Yaxın Şərqi birləşdirən mühüm karvan yollarının üstündə yerləşən, hazırda isə şimaldan Gürcüstan, şərqdən və cənub-şərqdən Azərbaycan Respublikası, qərbdən Türkiyə, cənubdan İranla həmsərhəd olmaqla 29, 8 min kvadrat kilometr sahəni əhatə edən bu diyar indi Ermənistan kimi tanınsa da, onun ərazisi qədim türk-oğuz yurdu, tarixi Azərbaycan torpağıdır. Bu faktı həmin ərazidəki saysız-hesabsız yeraltı və yerüstü maddi mədəniyyət nümunələri - qədim yaşayış məskənləri, kurqanlar, qala, saray və istehkam qalıqları, karvansaralar, körpülər, at-qoç heykəlləri, məscid, pir və ocaqlar da təsdiq edir.***

Tarixi mənbələr göstərir ki, məhz çarizm dövründə ermənilər bura məqsədli və düşünülmüş şəkildə kütləvi halda köçürülərək Çar imperiyası üçün etnik dayaq yaradılmışdır. Bu siyasət rus çarı I Pyotrdan başlamış və sovet - bolşevik hökuməti dövründə də daha ciddi şəkildə davam etmiş və sovet hökumətinin ermənipərəst siyasəti nəticəsində, Qərbi Azərbaycan torpaqları üzərində sovet hökuməti tərəfindən indiki Ermənistan dövləti yaradılmışdır. Amma heç bir tarixi mənbə burada erməni varlığını və tarixdə hər hansısa bir erməni dövlətinin mövcudluğunu təsdiq etmir. Yəni bütün tarixi mənbələr Qərbi Azərbaycan torpaqlarının məhz Azərbaycana aid olmasını mötəbər dəlillərlə sübut edir. Ancaq ermənilərin şovinist, etnik təmizləmə siyasəti nəticəsində, Qərbi Azərbaycandakı Azərbaycan izləri dağıdılmış və yerlə-yeksan edilmiş, buranın əzəli sakinləri olan azərbaycanlılara qarşı ermənilər tərəfindən dəfələrlə soyqırımlar törədilmiş, onların izlərinin silinməsi siyasəti həyata keçirilmişdir. XIX əsrin 30-cu illərindən sistemli formada və məqsədli şəkildə həyata keçirilən iz silmə siyasəti daha sonra yeni vüsət almış, minlərlə yerli sakin qətlə yetirilmiş, Azərbaycan toponimləri rəsmi qərarla qondarma erməni toponimləri ilə əvəz edilmişdir. Nəhayət, Ermənistanla Azərbaycan arasındakı keçmiş Dağlıq Qarabağ münaqişəsinin alovlanmasından sonra 1987-ci ildən başlayaraq bu ərazilərdə yaşayan azərbaycanlılar zorla və hərbi güc tətbiqi ilə öz dədə-baba torpaqlarından qovularaq ermənilərin etnik təmizləmə siyasətinin qurbanı olmuşlar.

VII əsrin əbədi abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanının coğrafi mühiti həm də Qərbi



**Mehparə Mustafayeva,**
***Bərdə şəhər F.M.Muradov adına 7 №-li məktəbin direktoru***

Azərbaycanla bağlıdır. Dastanda adı çəkilən Şirökuvən, Altuntaxt, Göyçə gölü oğuz qəhrəmanlarının doğma yurdları olmuşdur və bu ərazilər indi Ermənistan adlanan Qərbi Azərbaycanın ərazisi daxilində yerləşir. Qərbi Azərbaycanın köklü sakinləri Azərbaycan türkləri olmuş, ermənilər isə xaricdən bu ərazilərə köçürülmüşdür. Məhz bunun nəticəsidir ki, tarixən, yəni 1991-ci ilə kimi ərazinin toponimlərinin 90 %-dən çoxunu türk mənşəli toponimlər təşkil edirdi. XIX əsrin əvvəllərindən başlayaraq 1994-cü ilə kimi Qərbi Azərbaycan ərazisində olan türk mənşəli toponimlərin adları dəyişdirilərək erməniləşdirilmiş və ya ruslaşdırılmışdır.

1828-ci ildə bağlanan Türkmənçay müqaviləsinin nəticəsi olaraq, ermənilər İrandan, Türkiyədən bu ərazilərə köçürülmüşdür. Bu tarixi faktlar erməni və rus mənbələrində öz əksini aydın şəkildə tapmışdır. Burada yaşayan azərbaycanlılar isə zaman-zaman 1905-1906, 1918-1920, 1948-1953 və 1988-1991-ci illərdə tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur.

*(Davamı səh.5-də)*

# QƏRBİ AZƏRBAYCANDA "QIRMIZI TABOR"UN FƏALİYYƏTİ

***Qərbi Azərbaycanın tarixinin öyrənilməsi bu gün qarşımızda vacib məsələ kimi diqqəti cəlb edir. Qərbi Azərbaycanın tarixində böyük rolu olmuş Abbasqulu bəy Şadlinskinin həyatı və millətinin, xalqının rifahı naminə fəaliyyətinin öyrənilməsi, hesab edirik ki, böyük aktuallıq tələb edir. Onun yaratdığı "Qırmızı tabor" erməni daşnaqlarına qarşı mübarizə aparmış və azərbaycanlıları qorumaq məqsədi ilə xeyli iş görmüşdür.***

"Qırmızı tabor" adlanan diviziya 1918-ci ildə yaradılmışdır. Onun yaradılmasında əsas məqsəd yerli azərbaycanlıları azğın ermənilərdən qorumaqdan ibarət idi. 1918-ci ildə "Azərbaycan" qəzeti yazır: "Müntəzəm dövlətlər və siyasi qüvvələr müharibə edirlər, fəqət müsəlləh [silahlı] əsgəri qüvvənin müsadiməsi [toqquşması; döyüşm?si] heç dinç əhalinin bir-birini, xüsusən arvad-uşağı qırmalarını tələb etmir. Halbuki bu iş həman hərəkətə təvəssül etmiş [?l atmış, girişmiş] və etməkdə olan şəxslər üzərində silinməz bir ləkədir ki, qalır və əgər bütün cahana "Hədsiz cəbhələrdə qan tökmək bəsdir daha" demək vaxtı gəlmiş isə, milli ədavət və insan qanından gözü tutulmuşların əlində ölən dinç əhalinin, xüsusən günahsız arvad-uşağın qanı axıdılması müqabilinə etiraz etmək vaxtı çoxdan yetişmişdir" [1. 8].

Artıq bu dövrdə azərbaycanlılarla ermənilər arasında olan ədavət kəskinləşmiş və vəhşilik səviyyəsinə çatmışdır. İrəvan mahalında və yaxın ərazilərdə yaşayan azərbaycanlıların qorunması vacib məsələ idi. Dövrün ziyalıları və hörmətli adamları bu işdə əlbir olmağa çalışırdılar. Məhz bu niyyətlə "Qırmızı tabor" yaradılır.

Erməni silahlı dəstələrinin İrəvan quberniyasında azərbaycanlılara qarşı törətdikləri qırğınların birinci mərhələsi 1918-ci ilin əvvəllərindən başlanmışdır. 1918-ci ilin martına qədər təkcə İrəvan quberniyasının qəzalarında 198 kənd tamamilə dağıdılmışdır. Bu rayonlarda yaşayan soydaşlarımıza qarşı 135 mindən çox soyqırımı törədilib.

1918-ci ilin mart ayında baş vermiş soyqırımı hadisəsindən sonra hər iki millət arasında konflikt daha da dərinləşmişdi. İrəvan quberniyasında yaşayan müsəlmanların vəziyyəti acınacaqlı hal almışdı. Buraya yerləşdirilən Osmanlı ordusu yerli azərbaycanlıları qoruyurdu və onlar özlərini müdafiə olunmuş hiss edirdilər. Lakin elə həmin ilin noyabrında Çar Rusiyası Osmanlı dəstələrinin İrəvandan çıxarılması tələbini qoyur və onlar İrəvanı tərk etməyə başlayırlar. "Azərbaycan" qəzetinin 1918-ci il 5 noyabr tarixli, 31-ci nəşrində qeyd olunur ki, "Şimdi isə şu yerlərdən Osmanlı ordusunun çıxması məsələsi ilə əlaqədar olaraq bədbəxt müsəlman əhalisini vüqu möhtəməl olan hadisat qarşısında dəhşət və vəhşət qaplayır. Onlar kəndilərini Azərbaycan Cümhuriyyətinin bir cüzü sanaraq, onların hər bir təərrüz [hücum] və təcavüzlərdən m?sun qalmalarını təmin etmək barəsində istidada [xahişd?] bulunmağı kəndilərinin vətəndaşlıq vəzifəsi ədd [hesab] etdilər. V?illa [yoxsa; el? olmazsa] büsbütün tələf olacaqları mühəqqəqdir [qaçılmazdır]. Bundan naşi [bu s?b?bd?n] nümayəndələr Azərbaycan hökumətindən Ermənistanla İrəvan müsəlman əhalisinin yerlərinə qaytarılması barəsində müzakiratda bulunmasını istida etmişlər. Erməni-müsəlman məsələsinin sabiqi tərzi qurbanı olan İrəvan müsəlman əhalisinin səsi bütün Azərbaycan türkləri tərəfindən eşidilməlidir" [1. 77].



**Sabirə Bayramova,**
***Gəncə Dövlət Universiteti Pedaqogika üzrə fəlsəfə doktoru***

Andronikin törətdiyi vəhşiliklər artırdı. O, rəsmi mətbuatda da azərbaycanlılarla bağlı bəyanat verir, əksər hallarda onlar vahiməli olurdu, bu isə güclü psixoloji təsir gücünə malik idi. 1919-cu ilin aprelinə qədər Andranikin qoşunları Ərzurumdan Zəngəzura gedən yolda yerləşən, 500-dən çox türk-müsəlman yaşayış məntəqəsini dağıdıblar. Andranik Zəngəzuru ələ keçirməklə Qərb dövlətlərinin Türkiyənin türkdilli dövlətlərlə əlaqələrini kəsmək niyyətlərini həyata keçirdi. Sovet Rusiyası isə Zəngəzurun Ermənistana verilməsini rəsmiləşdirdi və bununla da Naxçıvan Azərbaycandan qoparıldı. Əhali böyük təşvişdə idi. Azərbaycanlılar əvvəlcə Azərbaycandan, sonra isə bütün dünyadan kömək istəyirdilər.

1918-ci il noyabrın 2-də erməni əsgərləri Göyçədə hücum çəkmiş və azərbaycanlılara qarşı haqsızlıq etmişlər. "Təşrini-saninin [noyabrın] 2-sində erməni əsgərləri Azərbaycan sərhədini keçib, silah gücünə Göyç? müsəlmanlarının təslim olmalarını tələb etmişlərdir. Hal-hazırda erməni əsgərləri əhalini qarət edib, irz-namusa əl atmaqdadırlar. Müsəlmanların irz-namusunun, həyat və əmvalının [mallarının] vəhşilər əlindən xilası üçün tədbirlər görülməsini 60 min müsəlman namından [adından] rica eyləriz. Gəncə uyezdinin 9-cu hissəsi: Sultanov" [1. 166].

Bu vaxt Abbasqulu bəy Şadlinski "Qırmızı tabor" adlı dəstə yaradır. Həmin dəstə Vedibasardan başlayaraq erməni daşnaqlarına qarşı vuruşmağa başlayır. Tarixi mənbələr göstərir ki, dəstə 1918-ci ildə, ermənilərin növbəti talançılığı haqqında məlumat alan kimi bu istiqamətə gəlib ermənilərin mühasirəyə alırlar. Ermənilər ağır itkilərə məruz qalaraq geri çəkilməyə məcbur olurlar. Yerli sakinlərdən eşitdiyimizə görə, ermənilər Abbasqulu bəydən çox qorxurdular. Onun azərbaycanlılar arasındakı nüfuzu, qəhrəmanlığı erməniləri qorxuya salırdı. Lakin Şadlinskiyə və onun dəstəsinə qalib gələ bilmirdlər.

Qeyd edilir ki, "1918-ci il may ayının son günlərində Ağdağın Böyük Vedi istiqamətində erməni əsgərləri özlərinə hərbi-döyüş istehkamları düzəldəndə vedibasarlıların narahatlığı daha da artdı. Buna görə Abbasqulu bəy təcili əks-tədbirlər gördü, hücum gözləniləcəyi güman edilən ərazilərdə silahlı dəstələr yerləşdirdi, Daşlı və Gavurqala istiqamətlərində güclü müdafiə istehkamları yaratdı" [2].

Məğlubiyyəti qəbul edə bilməyən ermənilər təkrarən Vediyə hücum çəkirlər. Onlar Böyük Vedini üç tərəfdən mühasirəyə alırlar. "Qırmızı tabor" əks hücuma başlayır. Onlara Kərbəlayi İsmayılın dəstəsi də köməyə gəlir. Ermənilərə əsl "toy tuturlar". Abbasqulu bəy Dağ Vedibasara, Millidərəyə və Aran Vedibasara hücum edən daşnakların törətdikləri vəhşiliklərə görə bu kəndlərdə onlara qoşulub nankorluq edən erməni ailələrinin burada yaşamasını mümkünsüz hesab edir, onları qonşu ərazilərdəki istədikləri erməni kəndlərinə, onların da evlərinə müsəlman ailələrini köçürür, kəndlərdə könüllülərdən ibarət özünümüdafiə bölükləri yaradır, kəndə keşikçilər təyin edir. Daşnakların Vedibasardan Naxçıvana gedən dəmir yolunu ələ keçirmək barədə irimiqyaslı işğalçılıq planları "Mübariz dəstə" tərəfindən alt-üst edilir [2].

"Qırmızı tabor" Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra da fəaliyyətini davam etdirmişdir. Onlar bütövlükdə fəaliyyət göstərdikləri müddətdə xalqını, millətini ermənilərdən qorumuş və çox böyük fədakarlıqlar göstərmişlər. Qəribədir ki, Ermənistan hakimiyyəti sovet hakimiyyətinin qurulmasına maneçilik törədən ermənilərə qarşı mübarizədə Abbasqulu bəy Şadlinskiyə müraciət etmiş və ondan kömək istəmişdir.

Onlar cəllad Dronun daşnak qüvvələrini darmadağın edərək, Naxçıvanda sovet hakimiyyətini qurmuş, burada ingilis-daşnak işğalına son qoymuşlar. Abbasqulu bəy Şadlinski bu xidmətləri müqabilində Nəriman Nərimanov tərəfindən "Qızıl ulduz" medalı ilə təltif edilmişdir. Bundan başqa A. Şadlinski başda olmaqla, "Qırmızı tabor"un 19 üzvü daşnaklara qarşı döyüşlərdə göstərdikləri şücaətə görə Ermənistan SSR-in "Qırmızı bayraq" ordeni ilə təltif olunmuşdu. "Qırmızı tabor" hissələri Zəngəzurun daşnaklardan təmizlənməsində də böyük qəhrəmanlıq göstərmişdilər. Ermənistanda və Zəngəzurda sovet hakimiyyəti bərqərar olduqdan sonra "Qırmızı tabor" Naxçıvanda saxlanılmış və onun sərhədlərinin qorunmasında fəal iştirak etmişdir [3]. 1986-cı ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda "Qırmızı tabor" dəstəsinə həsr olunmuş "Şöhrət muzeyi" açılmışdır.

Göründüyü kimi, "Qırmızı tabor" diviziyası əsrin əvvəllərində Azərbaycanın ərazisini, millətinin xalqının nümayəndələrini qorumaqda əvəzsiz xidmət göstərmişlər. Fəxrlə bildirmək istəyirəm ki, mənim babam Orucov Bayram Həbib oğlu da bu dəstənin üzvü olub və torpaqlarımızın, soydaşlarımızın qorunmasında qəhrəmancasına vuruşmuşdur.

# Ata-baba yurdumuz - Qərbi Azərbaycan

*(Əvvəli səh.4-də)*

Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində, xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində, azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən - min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskənləri dağıdılıb viran edilmişdir. Tarixi Azərbaycan torpaqları olan Qarabağ və Zəngəzura XIX əsrin əvvəllərindən başlayaraq erməni əhalisinin yerləşdirilməsi, demoqrafik vəziyyətin zorla dəyişdirilməsi, 1905-1918-ci illərdə azərbaycanlı əhalini qorxutmaq və qovmaq məqsədi güdən kütləvi qırğınlar, 1920-ci illərdə Zəngəzurun Ermənistana verilməsi, 1948-1953-cü illərdə yüz minlərlə azərbaycanlının indiki Ermənistan ərazisindəki əzəli yurdlarından köçürülməsi xalqımıza qarşı erməni təcavüzünün qanlı səhifələridir. Xalqımız əldən getmiş torpaqların nisgilini indi də çəkir. İndi də "Göyçə", "Zəngəzur" deyəndə xalqımızın ürəyi ağrıyır.

Bəli, Qərbi Azərbaycan tariximizin bir parçasıdır - ürək ağrıdan, qəlb göynədən parçası. Bu torpaqlarda Dədə Qorqud qopuz çalıb, söz qoşub, igidlərə ad verib, Koroğlu bu torpaqlarda düşmənlə cəng edib, Aşıq Ələsgər dağlarımızı, buz bulaqlarımızı, güllü-çiçəkli torpaqlarımızı vəsf edib. Bu torpaqlarda Şah İsmayılın ayaq izi var. Ümumiyyətlə, Qərbi Azərbaycan torpağı Azərbaycan elminə görkəmli şəxslər - ictimai xadimlər, elm, mədəniyyət, ədəbiyyat və incəsənət aləmində öz sözü olan şəxslər bəxş etmişdir.

Bu baxımdan, tarixi yaddaşımızın bərpasına və qorunaraq gələcək nəsillərə çatdırılmasına hər zaman böyük önəm verən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2024-cü il dekabrın 24-də Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olarkən bu məsələyə xüsusilə toxunub: "Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir daha tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerləyeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var. Bu binada nümayiş etdirilən XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb".

Müstəqilliyimizin bərpasından bəri Ermənistanın Azərbaycana qarşı təcavüzünü sona çatdırmaq, Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədi ilə 27 sentyabr 2020-ci ildə bütün cəbhə boyu əks-hücuma keçən Azərbaycan ordusu 1990-cı illərin əvvəllərində baş verən Birinci Qarabağ müharibəsi zamanı Ermənistan tərəfindən işğal edilmiş əraziləri işğaldan azad etməyə başlamış, 44 gün davam edən və "Vətən müharibəsi" olaraq adlandırılan müharibə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun gücünü göstərərək Azərbaycanın qələbəsi ilə başa çatmışdır. Vətən müharibəsində parlaq qələbə qazanaraq Qarabağa və Şərqi Zəngəzura böyük qayıdışı qətiyyətlə gerçəkləşdirən Azərbaycan dövlətinin növbəti tarixi hədəfi qərbi azərbaycanlıların pozulan hüquqlarını bərpa edərək onları əzəli yurdlarına qaytarmaq olmuşdur. Məhz bu baxımdan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşü zamanı qətiyyətlə vurğulamışdır ki, "Gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar".

# Aşıq Ələsgər yaradıcılığında öyüd-nəsihət motivləri

**Aşıq Ələsgər Azərbaycan aşıq sənətində ustad aşıqlar arasında ən yüksək zirvədə dayanan el sənətkarıdır. "Mübaliğəsiz demək olar ki, Azərbaycanda Aşıq Ələsgər qədər hörmət və şöhrət qazanmış ikinci bir aşıq yoxdur" (Axundov, 1971: 14). Bu görkəmli aşıq istər aşıq şeirinin inkişafında, istərsə də ustad-şəyird münasibətlərində böyük xidmətləri olan xalq müdrikidir. Neçə saz havalarının yaranması, dodaqdəyməz, dildönməz kimi aşıq şeirinin formaları da Aşıq Ələsgərin adı ilə bağlıdır. El sənətkarının ədəbi irsi zəngindir.**

Burada öyüd-nəsihət motivləri də az işlənməmişdir. Bu motivlər aşığın yaradıcılığının böyük bir hissəsini əhatə edir. "Gərəkdi", "Dayanmaz", "Olmaz", "Ola bilməz", "Olmaz, olmaz", "Olar", "Olacaqdı", "Eylər", "Yaxşıdı" və digər şeirləri daha səciyyəvi sayıla bilər. Aşıq Ələsgərin həcvlərində də öyüd-nəsihət motivlərinə rast gəlmək mümkündür. Təvazökarlıqdan uzaq olsa da, qeyd edək ki, biz bu məqaləni Aşıq Ələsgərə böyük sevgi və rəğbətlə işləmişik. Çünki Aşıq Bəhman Sallılı ata babamızdır, o da Aşıq Cəlilin şəyirdi olub. Təbii ki, Aşıq Ələsgərin Aşıq Cəlilə verdiyi dəyər də məlumdur. Dolayı olsa da, bizim buna haqqımız vardır, bundan qürur duyuruq.

Aşıq Ələsgər halallığı, insanlığın gözəl sifətlərini, Allaha inamlı olmağı, zəhmətkeşliyi yüksək qiymətləndirərək bunları öyüd-nəsihət motivli şeirlərində əks etdirir. O deyir:

*"Can" deməklə candan can əksik olmaz,*
*Məhəbbət artırar, mehriban eylər.*
*"Çor" deməyin nəfi nədi dünyada,*
*Abad könül yıxar, pərişan eylər.*

*Nakəs adam danışanda saz olar,*
*Kərəmdən kəm, səxavətdən az olar.*
*Nütfədən qarışan şeyitbaz olar,*
*Mərd də sığışdırmaz nahaq qan eylər*
**(Aşıq Ələsgər, 2003: 65).**

El sənətkarı insanları mehriban olmağa, nəcib hərəkətlər etməyə dəvət edərək belə münasibətlərin insanlara fayda verəcəyini göstərməklə bərabər, nakəs və nütfədən qarışanların kərəm və səxavətdən kənar olduqlarını da xatırladaraq bu cəhətlərin insanlığa sığmadığını deyir.

İ. Ələsgər göstərir ki, Aşıq Ələsgərin şeirlərinin məzmun və bədii dəyərini heç bir aşıqla müqayisə etmək mümkün deyil (Ələsgər, 1999: 13).

Aşıq Ələsgərin öyüd-nəsihət motivli şeirlərindən biri də "Gərəkdi" adlı qoşmasıdır. Ustad aşıq burada aşıq olan şəxsin ədəb-ərkan sahibi, mərifətli, əxlaqlı olmasını göstərməklə bərabər, həqiqəti anladandır, nəfsdən, şeytanlıqdan kənardır. Aşıq Ələsgər, bir növ, "El sənətkarı necə olmalıdır?" sualına dolğun cavab verir:

*Aşıq olub diyar-diyar gəzənin,*
*Əzəl başda pür kamalı gərəkdi.*
*Oturub-duranda ədəbin bilə,*
*Mərifət elmində dolu gərəkdi.*

*Xalqa həqiqətdən mətləb qandıra,*
*Şeytanı öldürə, nəfsin yandıra.*
*El içində pak otura, pak dura,*
*Dalısınca xoş sədalı gərəkdi.*

*Danışdığın sözün qiymətin bilə,*
*Kəlməsindən ləlü gövhər süzülə.*
*Məcazi danışa, məcazi gülə,*
*Tamam sözü müəmmalı gərəkdi*
**(Aşıq Ələsgər, 2003: 71).**

Aşıq Ələsgərin bu qəbildən olan qoşmaları arasında dostluqla, dostla bağlı olanlar da az deyil. Aşıq Ələsgər deyir:

*İyid odur namusunu atmasın,*
*Dost ölüncə dosta yalan satmasın.*
*İlqarın dalınca bir baş getməsin,*
*Onu bir qarpıza dəyişmək olar*
**(Aşıq Ələsgər, 2003: 103).**

İslam Ələsgər yazır: "Özünün davranışı ilə xalq arasında saysız-hesabsız dost qazanmış olan Aşıq Ələsgər dost və dostluq haqqında geniş fikir söyləmişdir (Ələsgər, 2003: 18).

Bu, həqiqətən, belədir. Dediklərimizi daha aydın təsvir etmək üçün böyük aşığın yaradıcılığına, yəni dostluqla bağlı şeirlərdən nümunələrə nəzər yetirək:

*Qafil olma, dilim, düşmə həvəsdən,*
*Hərcayi sözüylə incimə dostdan*
**(Aşıq Ələsgər, 2003: 101).**

*Dostun məzəmməti adam öldürür,*
*Düşmanla söyüşüb-döyüşmək olar*
**(Aşıq Ələsgər, 2003: 103).**

*Ya dost olma, ya zəhmətdən incimə,*
*Dost yolunda boran-qar olacaqdı*
**(Aşıq Ələsgər, 2003: 102).**

Təbii ki, bu misalların sayını artırmaq da olar. Aşıq Ələsgərin yaradıcılığında bu qeyd olunan nümunələrdən də göründüyü kimi, dostluğa, dostluq əlaqələrinin saxlanmasına böyük önəm verilir, həm də dost olmağın, bu münasibətlərin elə asan olmadığını da, çətin imtahanlardan keçə bilməyi də adamlara xatırladılır.

Müəllif dostluğun saflığa, halallığa, zəhmətkeşliyə bağlı olduğunu, eyni zamanda insanlığın nəcib sifətlərini əks etdirdiyini deyir. El sənətkarı kəmfürsət, hərcayi adamların sözləri ilə dostdan inciməyin səhv hərəkət olduğunu da bildirir.

Dost və dostluq haqqında Göyçə aşıq mühitinə mənsub el sənətkarlarının ədəbi irsində də rast gəlinir. Aşıq Mehdi deyir:

*Hər yetəni sən özünə dost tutma,*
*Dostun arasında düz ilqar gərək*
**(Sazlı-sözlü Göyçə, 1999: 144).**

Aşıq Ələsgər kimi tərifləyir, təqdir edirsə - fərqi yoxdur, gözəllər olsun, sayılıb-seçilən igidlər, el-obanın yaxşı adamları - hər kəsdə doğruluq, haqqa sevgi, Allaha bağlılıq arzulayır:

*Saat kimi meyli haqqa dolana,*
*Doğru qəlbi, doğru yolu gərəkdi*
**(Aşıq Ələsgər, 2003: 71).**

Burada H. Araslının Aşıq Ələsgər haqqında dediyi sözləri xatırlamamaq olmur: "Xalq dilini bütün zənginliyi ilə ifadə etməyi bacaran bir nadir istedad olmuşdur" (Araslı, 1972: 9).

Aşıq Ələsgər adamlarda halallığı yüksək qiymətləndirir, hər kəsin mərifət elminə bələd olmasını söyləyir:

*Nütfədən pak olan, loxmadan halal,*
*Mərifət elminə nabələd olmaz*
**(Aşıq Ələsgər, 2003: 105).**



**Afaq Mustafayeva,**
***AMEA Folklor İnstitutunun əməkdaşı***

Ustad sənətkar mərdliyi də insanın ən gözəl cəhəti kimi dəyərləndirərək onu insanlığın əsas cəhətlərindən biri kimi təqdir edir:

*Comərdin kisəsi, mərdlərin nanı,*
*İnşallah, ölüncə az olmaz, olmaz*
**(Aşıq Ələsgər, 2003: 107).**

Biz bunu Aşıq Ələsgərin digər bir şeirində də görürük:

*Heç namərdin adı gəlməz hesaba,*
*Mərd bir olar, onda iki ad olmaz*
**(Aşıq Ələsgər, 2003: 104).**

Aşıq Ələsgərin yaradıcılığında elə şeirlər yoxdur ki, hikmətlə, nəsihətlə zəngin olmasın, insanın könlünü tərpətməsin. Çünki müəllif təsvir etdiyi adamları müsbət cəhətləri ilə bərabər, onları dürüstlüyə, halallığa səsləyir, yəni insan bu cəhətlərə aşina olmalıdır, həm də hər kəs istəyini Allahdan istəməlidir:

*Ələsgər, mətləbin Xudadan istə,*
*Kərəm olmaz müxənnəsdə, xəsisdə.*
*Bəylik, göylük, səylik olan məclisdə*
*Qaç ki, orda xeyir-bərəkət olmaz*
**(Aşıq Ələsgər, 2003: 105).**

El sənətkarının şeirlərindən "Olmaz, olmaz" qoşması da didaktik cəhətinə görə diqqətçəkicidir. Burada da insan ağlının əhəmiyyəti, onun kamilliyinin vacibliyi ustalıqla xatırladılır, göstərilir ki, ağılsız hərəkət etmək olmaz, belə olsa, həmin şəxs xeyir yox, ziyan eləyər:

*Zikirsiz mömini şeytan aldadar,*
*Sayqısız iyidi düşman aldadar,*
*Ağılsız cahili kirşan aldadar,*
*Günü keçmiş qarı qız olmaz, olmaz.*

*Görməmişəm öküz yeriyə yorğa,*
*Gədadan bəy olmaz, dəlidən darğa,*
*Suda çimmək ilə sağsağan, qarğa*
*Çöldə silkələnib qaz olmaz, olmaz*
**(Aşıq Ələsgər, 2003: 107).**

Müəllifin öyüd-nəsihət motivləri digər şeirlərində də nəzərə çarpır. Bunlardan bir neçə nümunə verməyi məqbul sayırıq:

*Bir adamsan, bir adama namə yaz,*
*Mahalı incidib eldən danışma*
**(Aşıq Ələsgər, 2003: 245).**

*Alçaqda dayan ki, çıxasan başa,*
*Tülküsən, aslanla girmə savaşa.*
*Gəl yapışma gücün çatmayan daşa,*
*Götürə bilmərsən, zora düşərsən*
**(Aşıq Ələsgər, 2003: 246).**

*Əyri ol əyriylə, düz ol düz ilə,*
*Hər yetəni sən aldatma, hayıfsan*
**(Aşıq Ələsgər, 2003: 249).**

*Hərcayıya aşna olma,*
*Namərdə bel bağlama;*
*Müxənnət qatar aşına*
*Ağı gözlə, gözlə sən*
**(Aşıq Ələsgər, 2003: 175).**

"Aşıq Ələsgərin şeirlərinin mayasını düzlük, mehribanlıq, dostluqda sədaqətlilik, şöhrətə uymamaq, xəyanətkarlıqdan uzaq olmaq kimi mühüm cəhətlər təşkil edir" (Məhərrəmov, 1997: 14).

Böyük aşığın yaradıcılığından da göründüyü kimi, nəsihətamiz sözləri istər-istəməz adama atalar sözlərimizi, zərbi-məsəllərimizi xatırladır. Bunu onun aşağıdakı misralarında sezmək mümkündür:

*Dosta xain baxan kor olacaqdı.*
*Kəsb elə özünə halaldan maya.*
*Yüz il keçsə qohum səndən yad olmaz.*
*Mərd bir olar, onda iki ad olmaz.*

*Heç namərdin adı gəlməz hesaba.*

Bu misallar yadımıza "Doğruluq dost qapısıdır", "Haqq nazilsə də, üzülməz", "Mərdin adı qalar, müxənnətin nəyi qalar" kimi atalar sözlərimizi salır. Odur ki, İslam Ələsgər yazır: "Aşıq Ələsgərin bir çox misraları xalq arasında atalar sözləri və zərbi-məsəl kimi işlənməkdədir" (Ələsgər, 2003: 19).

Aşıq Ələsgərin poeziyası özünün mükəmməlliyi, özünəməxsusluğu ilə seçilir. Burada sözün işlənməsi, ifadə və deyimlər yerli-yerində, həm də yeni biçimdə, yeni rəngdə, yeni çalarda verilir. Bu poetik örnəklər müəllifi halal, din-iman sahibi, özünü Allahın qulu sayan, könlü zəngin olan bir şəxs kimi təsdiqləyir. O, kəramət sahibidir ki, kəlmələrindən sanki ləl-gövhər tökülür. H. Əlizadə yazır ki, Aşıq Ələsgərin coşqun bir irmaq kimi axan təbii şeirindəki lirizm və səmimiyyət yalnız aşıqlarda deyil, şairlərimizdə də belə görünmür (Əlizadə, 1929: 11).

Aşıq Ələsgərin poeziyasında insanın nəcib cəhətləri, ağıl və kamalın onun həyatında əsas rolu, hikmət və nəsihətin əhəmiyyəti, halallıq və mərdlik sifətləri hər kəsdə bu el sənətkarına tükənməz məhəbbət və sevgi yaradır, çünki böyük aşıq, öz dediyi kimi, istədiyini Yaradandan istəyir:

*Ələsgər, mətləbin Xudadan istə*
**(Aşıq Ələsgər, 2003: 105).**

O, haqqın yolunda dolandığından da söz açır:

*Bir qul ki, dolana haqqın yolunda,*
*Qəza tutmaz, ona bəla yetişməz*
**(Aşıq Ələsgər, 2003: 415).**

Aşıq Ələsgər göstərir ki, həmişə haqq ilə sövdə qılıb və haramdan uzaq olub:

*Sövdə qıl haqq ilə, əl çək haramdan,*
*Halaldan mətləbin al, qoca baxtım*
**(Aşıq Ələsgər, 2003: 416).**

Aşıq Ələsgərin ədəbi irsində hikmətsiz söz və ifadə yoxdur, onun insanlara, canlı aləmə, Allaha sevgi və məsləhəti şeirlərində əks olunmuş, səmimi duyğu və hissləri ilə könülləri fəth etmişdir.

Aşıq Ələsgər poeziyası öz zənginliyi, əhəmiyyəti və yüksək dəyəri ilə həmişə tədqiqat obyekti olmasına, yeni-yeni tədqiqatların aparılmasına vüsət verir. Bu, el sənətkarının hikmət xəzinəsinə baş vurmağın vacibliyini göstərir. "Həqiqətən də əsrlərin arxasından süzülüb gələn xalq şeiri, xalq müdrikliyi, xalq dilinin saflığı, büllurluğu Ələsgər şeirində cəmləşmişdir" (Vahabzadə, 1972: 11).

El sənəti ölməz, söz ölməz. Sözə ölümsüzlük və uzun ömür bəxş edənin biri də Aşıq Ələsgərdir. Onun zəngin poeziyası sözün əbədiliyini əks etdirir.

# Sizə nə vaxtsa itirib, yaxınlarda tapdığım bir dünyadan danışacağam...

**Məqaləmin adını Dədə Şəmşirin 1972-ci il 16 mart "Azərbaycan gəncləri" qəzetində çap olunan "Qulağımdan getmir səsi" adlı məqaləsindəki yazıda gedən bir cümlə ilə başlamağım heç də təsadüfü deyil. Uşaqlıq xatirələri, yadda qalan ən şirin, ən acı xatirələr... Dədə Şəmşir bu gündə gözümün önündədir, ucaboylu, yaraşıqlı, nurani baxışları baxışlı bir baba...Mən baba qayğısını, baba nəvazişini Dədə Şəmşirdə görmüşəm.Ata babam Məhərrəmov İdris Şirin oğlu haqqında ağsaqqallardan, ağbirçəklərdən çox eşitmişdim xüsusən Dədə Şəməirdən.**




Dədə Şəmşirin bizə gəlişi, babam Aşıq İdrisin divardan asılan şəklinin qarşısında dayanıb ağlaya - ağlaya şəkilnən danışması uşaqlıq xatirələrimdə bu gündə yaşayır.Nənəm Zərnişan xanım ilə babm haqqında etdiyi söhbətlər, saz çalmağı, nənəm ilə nə isə danışır, nənəm, Dədə Şəmşir ağlayır...

Hər dəfə yayda kəndimizə gedəndə ağsaqqal və ağbirçəklərə görüşəndə soruşurdular bu uşaqlar kimdi, tanıyanlar deyərdi ki, İdris əmimin nəvələridi Bakıdan gəliblər.Özlüyümdə fikirləşirdim mənim babam nə qədər insanların əmisidi...Böyüdükcə yavaş - yavaş başa düşürdüm ki, mənim babam kim olub.Nənəm Zərnişan xanım da həmişə bizə deyirdi ki: " Ay bala babanızın gözəl zil səsi vardı, səsinin zilliyindən otuzluq lampalar sönərdi.Aşıqların rəhbəri idi.Azərbaycanın rayonlarını gəzərdi, aşıq yoldaşları ilə birlikdə rayonlara gedər, xalqın qarşısında konsertlər verərdi.Baban çox mehriban qayğıkeş, ailəcanlı, övladlarına bağlı bir insan idi.Hələ xaricədə gedərdi,əzizlərinə ata, anasına, qohum əqrabaya gözəl hədiyyələr gətirərdi. Mənə qəşəng ziynət əşyaları gətirmişdi, nə deyim bu müharibəyə, müharibənin çətin günlərində hamısını satıb balalarıma çörəyə verdim, qoymadım acından ölsünlər, hər şeyimizi əlimizdən aldı müharibə.Kəndimizdən nə qədər igid oğlanları müharibəyə getdi qayıtmadı, nə qədər analar başı qarayaylıqlı,qızlarımız atasız,gəlinlərimiz dul, balalarımız yetim qaldı. Ama ay bala sizə bir söz tapşırıram böyüyəndə babanızın şeirlərini, nağıllarını, dastanlarını toplayıb çap elətdirərsiniz, bax bu dediyimi mütləq edin". Nənəm danışdıqca gözlərindən yaş sel kini axır, sözünün ardını gətirə bilmirdi... İllər ötdü mən böyüdüm, tale elə gətirdiki AMEA Əlyazmalar İnstitutunda elmi fəaliyyətə başladım.Babam haqqında arxivlərdən axtarışlar apardım.Babam Aşıq İdrisin atası Aşıq Şirin də ustad aşıqlardan olmuşdur. Aşıq Şirin haqqında ilk məlumatı folklorşünas alimimiz Rüstəm Rüstəmzadənin "Gənclik" nəşriyyatı tərəfindən 1984-cü ildə çap olunan "El qəhrəmanları xalq ədəbiyytında" kitabından əldə etdim. Müəllif xalq qəhrəmanı "Qaçaq Kərəm" haqqında tədqiqat aparaarkən AMEA Memarlıq və İncəsənət İnstitutunun arxivində rast gəldiyi "Kərəm xan Sərtib" dastanından söhbət açaraq yazır: "Dastanın başqa bir variantı Bülbülün rəhbərliyi ilə 1937-ci ildə Memarlıq və İncəsənət İnstitutunun əməkdaşlarının Şəki ekspedisiyası zamanı Aşıq Şirin Məhərrəm oğlu İsmayılovdan toplanmışdır". Orada verilmiş qeyiddən göründüyü kimi, o vaxt Aşıq Şirinin 90 yaşı olmuşdur. "Kərəm xan Sərtib" dastanını isə yeznəsi Aşıq Məhərrəmdən öyrənmişdir".İkinci bir məlumatı isə Dədə Şəmşirin 1972-ci il 16 mart "Azərbaycan gəncləri" qəzetində çap olunan "Qulağımdan getmir səsi" adlı məqaləsindən almışıq. Belə ki, Dədə Şəmşir Aşıq Şirinin oğlu Aşıq İdris haqqında yazır ki: "Aşıq İdris aşıqlıq sənətinə erkən yaşlarından maraq göstərmiş, 12 yaşında ikən atası Aşıq Şirindən ilk ustad dərsi almışdır"... Dədə Şəmşir məqaləsində yazır: "Sizə nə vaxtsa itirib, yaxınlarda tapdığım bir "dünya"dan danışacağam. Sinəsində söz ümmanı çağlayan həmkarım Aşıq İdrisdən söhbət açacağam. Aşıqlar müqəddimsiz danışmazlar, deyirəm, bu qaydanı pozmayaq. Bir etirafımı sizə çatdırmaq istəyirəm... Aşıq İdris haqqında mənim xatirələrim də bu kökə düşmüşdü. Xəyallarımda məndən uzaqlaşan, solğunlaşan nəğməkarımı bir təsadüf qəflətən elə tez mənə yaxınlaşdırdı ki, diksinən kimi oldum. Gözümü yumdum - Aşıq İdris gülər üzü ilə bəbəklərimi naxışladı, ürəyimi həsrətlə közərtdi. Dodaqlarıma onun şirin qoşmalarının sərin misra yağışı səpələnməyə başladı. Qulaqlarıma səsi gəldi. Birlikdə keçdiyimiz toy məclisləri, el şənlikləri yenidən məni qoynuna aldı. Düşüncələrim damla-damla birləşdi, gurlaşdı, hay-haraya çevrildi. Aşıq İdris dayandı qarşımda. Dünyada qəribə təsadüflər olur. Bakıda bir əczaxanaya girdim. Piştaxta arxasında dayanmış qadının ilk gəlişimdən mənə çox zəndlə baxdığını duydum. Marağını gizlədə bilmədi: "Bağışlayın, siz Aşıq Şəmşirsinizmi?" Qayınatasına 30 il əvvəl bağışladığım şəkildən məni tanıyıbmış. Fəhmə-fərasətə bax! Evlərinə gəldim. Divardan asılmış şəkildən İdris məni salamladı.

Siğə qardaş olduğumuz aşığın oğlanları Bahadır və Qəzənfər mənə ehtiram göstərdilər, ataları barədə yoldaşlar söyləməyimi xahiş etdilər. Aşıq İdris həm yaradıcı, həm də ifaçı sənətkarlarımızdan sayılırdı, hər ikisində də qabil idi. Göyçə mahalında, Kəlbəcər kəndlərində ad çıxarmışdı. Şöhrəti məclisdən məclisə yayılır, hörməti gündəngünə artırdı. Məlahətli zil səsi vardı. Səsinin lən-



gərindən otaqların pəncərə şüşələri cingildəşərdi, zənguləsinin zərbindən otuzluq lampa sönərdi. Peşə yoldaşları onun kamil qoşmalarını sevə-sevə oxusa da, o, özündən bir kəlmə çalıb-çağırmazdı. El sənətkarlarının qaymaq nümunələri dilinin əzbəri idi. Nə qədər söz bilirdi, nə qədər dastan öyrənmişdi! Ona həsəd aparardıq. Məclislərdə bir çox dastanı biz bilmədiyimizdən o, təkbaşına danışardı.Amma yorulmazdı.Təbiət ona qədəri əksilməz güc vermişdi, böyük qüdrət bəxş etmişdi.

"Koroğlu" dastanını söyləmək virdi idi. Koroğlunun yerinə necə də məğrur nərə çəkərdi!Elə özü də görkəmcə Koroğluya oxşayardı. Bugünkü kimi yadımdadır: 1938-ci ilin payızında Qasım İsmayılov rayonunun (indi həmin rayon Goranboy adlanır) Qızıl Hacılı kəndində toy keçirirdik. Şənlik Paşa kişinin evində idi. Mağaraya qəflətən 9 nəfər aşıq girdi. Hamısı da hədəli, hamısı da qızmış şir kimi. Çatan kimi: "Toy bizimdir. Bu meydan, bu şeytan"- dedilər. Onda belə sənət savaşları, qabaqlaşmalar tez-tez olurdu. Elə bu səbəbdən hər yerindən duran əlinə saz alıb, məclisə girməyə cürət etmirdi. Adam xofa düşürdü: birdən məni meydana çağıran olar, cəngimə gələn tapılar, döyüş cəbhəsində basılaram. Aşıq sənətdə özünü yetkin bilməmiş üstünə sənətkar adı götürməzdi. Nəsə, qayıdaq həmin məclisə. Doğrusu, 9 aşığın qəflət "savaşı" mənə yoxuş gəldi, pəhsindim. Aşıq İdris isə halını da pozmadan mənə ürək-dirək verdi:

- Bəxtimiz onda gətirərdi ki, onlar 15 nəfər olaydı. Hərəmizə yeddisi düşərdi. Qalardı birisi, o da evlərinə xəbər aparardı.

Sözün doğrusu, Aşıq İdrislə "doqquz qəhrəmana" divan tutduq. Bayaqkı toy yaddan çıxdı, əsil "toyu" aşıqlara elədik. Onlar sazlarını qoyub, əkilmək istəyəndə, İdrisin əvvəlki qış sərtliyi bir anda bahar nəsimi ilə əvəz olundu. Mehribanlıqla:

- Elə şey yoxdur, - dedi. -Ərənlər basdığını kəsməyiblər. Biz də onların övladlarıyıq. Əyləşin məclisdə, özü də hərəniz bir ağız oxuyub, təzə ailə quranlara xeyir-dua verin.

Toy qurtardıqda isə Aşıq İdris yığılmış pulu qardaş malı kimi düz on bir yerə böldü. "Doqquzlar" həm riqqətlənmişdilər, həm də əməlli-başlı pərt olmuşdular.

Aşıq İdris Aşıq Ələsgərdən, Aşıq Musadan, saz-söz sənətinin incəliklərini öyrənməyə can atmışdır. Həştaddan artıq söz havasına bacarıqla yiyələnmişdir. Otuz beş dastanı hər dəfə yeni əlavələrlə danışardı. Dinləyicilər dastan söylətməmiş, ondan əl çəkməzdilər. Azərbaycan aşıqlarının birinci qurultayında o, öz məharətini nümayiş etdirdi… Sənət yoldaşları olan biz-mən də, Aşıq Talıb da, Aşıq Hüseyn Çirkin də, Aşıq Ələsgərə on iki il şagirdlik etmiş Aşıq Ağayarda onun sənətinə heyran qalar, hörmətini uca tutardıq.

1941-ci il. Vətənimizin dar günündə Aşıq İdrisi cəbhəyə yola saldıq. Gedəndə gözündə, könlündə füsunkar yurdunun duyğularını apardı, bir də… O, hər kəsdən, hər şeydən ayrıla bilərdi, amma sirli sazından cüda düşmək onun üçün ölümdən betər idi. Sazını da özü ilə götürdü. Sevindik. Bilirdik ki, qovğalarda söz silahla qoşa döyüşüb. Saz olmasa, söz olmasa, elə kəsməzdi Koroğlu qılıncı. Aşıq İdrisin cəbhədən yolladığı məktublarda cəbhə yoldaşlarının onun sənətinə vurğunluğundan da danışılırdı. Döyüşçü aşığın qoşma ilə arvadı Zərnişana yazdığı məktub heç yadımdan çıxmır:

*Zərnişanım, gözlə, gözlə yolumu,*
*Səndən üzülməmiş gümanım mənim.*
*Oğul əmanəti, qız əmanəti,*
*Yaxşı saxla, dinim-imanım mənim.*

*Qoyma ürəyində arzu pasdana,*
*Göz yaşından tər yanağın isdana.*
*Dikilsin yoluma gözün mastana,*
*İstəkli sevgilim, cananım mənim.*

*Uzaqdan-uzağa sən məni dinlə*
*Ucalır avazım hey pillə-pillə.*
*Yayınmır düşmənə atdığım güllə,*
*Əyilməz ərlərdir hayanım mənim!*

Ayağım Göyçəyə düşdükcə Aşıq İdrisgilə gedər, haqqında hal-əhval tutardım. Yenə… Zərnişan mənə məktub gətirdi. Amma göz yaşı ilə. Ağ kağızla qara xəbər, "Qara kağız" - bu adı kim siftə qoyub, bilmirəm. Onu bilirəm ki, çox uyğun addı. "Qara kağız" - ağ günlərimiz naminə qara qüvvələrə qarşı döyüşlərdə həlak olmuş fədailərimizin mərdanəliyindən xəbər verən kağız. Qaradan sonra ağ, Qara günlərə qələm çalıb, ağ günləri yaxınlışdırmaq cəhdi!..." .

İslam Ələsgərin "Sazlı-sözlü Göyçə" kitabında müharibədən doğma yurda dönə bilməyən saz-



söz bahadırları haqqında oxuyuruq: ""Böyük Vətən müharibəsi" adlandırılan 1941-1945-ci il müharibəsi zamanı cəbhəyə yollanan Göyçə oğulları, öz canları, qanları bahasına Vətəni düşməndən təmizləməkdə fəal iştirak elədilər. Onların bir çoxu həlak oldu, doğma yurda qayıda bilmədi; öz əllərilə divardan asdıqları saz müharibədən sonra da uzun müddət sahibinin yolunu gözlədi".

Doğma yurduna qayıda bilməyən öz əllərilə divardan asdıqı saz müharibədən sonra, uzun müddət yolunu gözləyən vətən oğullarından biri də Məhərrəmov İdris Şirin oğlu idi. Aşıq Ələsgərdən, Aşıq Musadan saz-söz sənətinin incəliklərini öyrənib. Səksəndən artıq saz havasına bacarıqla yiyələnib, otuz beş dastanı hər dəfə yeni əlavələrlə danışırmış . Ailə arxivimizdə qorunub saxlanan azərbaycan, rus, erməni dilində olan 1938- 1941-ci illəri əhatə edən arayışların verdiyi məlumata görə Aşıq İdris İkinci Dünya müharibəsinə gedənə qədər Basarkeçər rayonunun Aşıqlar birliyinin sədri, Aşıqların I (5 may 1928-ci il) və II (12 mart 1938-ci il) qurultaylarının nümayəndəsi və Əməkdar İncəsənət xadimi olub. 1941-ci ildə könüllü olaraq İkinci Dünya müharibəsinə gedib (baxmayaraq ki, bir neçə dəfə hərbi komissarlıq tərəfindən geri qaytarılıb) və müharibədən qara kağızı gəlib. Bu günlərdə Lütfiyar Nəsibovun " Göyçə mahalı II Dünya savaşında" adlı kitabı ilə tanış oldum.



**Rübabə Şirinova,**
***Aşıq İdrisin nəvəsi, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent***

Kitabın 193-cü səhifəsində " İkinci Dünya müharibəsində Zərkənd sakinlərindən 57 nəfər döyüşlərdə həlak olmuş və ya itkin düşmüşdür.Onların siyahısı və hər biri haqda qısa məlumat təqdim olunur:... Məhərrəmov İdris Şirin oğlu (1905, Zərkənd) 28 avqust 1942-ci ildə səfərbər edilmişdir.S.ə. Basarkeçər RHK-nın 65618 saylı, 14 dekabr 1949-cu il tarixli,1 inv.883 saylı, tarixsiz, müharibədən sonrakı dövrün məlumatında 1943-cü ilin fevralında itkin düşdüyü göstərilir. Kitabın digər bir səhifəsində isə yazılıb..... Arxiv fondlarında araşdırmalar zamanı aşkar edilmiş digər sənəddə: 107-ci atıcı birqada idarəsinin 11698 saylı, 26 mart 1943-cü il tarixli qaytarılmaz itkilər haqqında məlumatında 18 fevral 1943-cü ildə döyüşdə həlak olduğu və Krasnodar diyarı Novorossiysk şəhəri Misxako qəsəbəsində dəfn olunduğu göstərilir" (ş. 539).Bu məlumat məni çox sevindirdi, çünki illərdi axtarış aparıram babalarım haqqında tam məlumatları əldə edə bilmirəm.Bu sənəddən mən babam Aşıq İdrisin doğum və vəfat tarixini tam dəqiqliyi ilə müəyyənləşdirmiş oldum.Deməli Məhərrəmov İdris Şirin oğlu 1905-ci ildə Göyçə mahalının Basarkeçər r-nun Zərkənd kəndində anadan olub, 1943-cü ildə , 38 yaşında vəfat edib Krasnodar diyarı Novorossiysk şəhəri Misxako qəsəbəsindndə dəfn olunub.

Aşıq İdris tarda da gözəl ifa edirmiş. O, çox vaxt konsertlərə və toylara balabançısı Cabbar Fərzəliyev, dəf çalanı Xanbaba Əliyevlə gedərmiş. Arayışlarda olan məlumatlar və ailə arxivimizdə qorunub saxlanan şəkil də bunu təsdiqləyir. Bu arayışların arasında 1939-cu il 11-ci ay tarixli sənəd çox maraqlıdır. Orada yazılır: "Basarkeçər rayonunun maarif şöbəsinin nəzdində təşkil olunmuş aşıqlar təşkilatının heyət üzvləri və təşkilat üzvləri Aşıqlar təşkilatının sədri İdris Məhərrəmov təşkilatın sədrinin müavini Bəhmən Qarayev, üzvləri: Nəcəf Məmmədov, Talıb Məmmədov, Ziyad Nadirov. Təşkilat üzvləri: Hüseyn İskəndərov, Yunus (Babacan), Kərəm Vəliyev (Pənbək), Səyyaf Əvəzov, Lətif Hüseynov (Qaraqoyunlu), Cahad Nağıyev, Qabil Vəliyev (Zərzəbilli),Cabbar Fərzəliyev (Kəlbəcər), Xanbaba Əliyev,Mikayıl Nəsibov,Xudu Namazov (Sorucan), Nağı Bədəlov (Kəsəmən), Qərib İsmayılov (Zod).

Dədə Şəmşir Aşıq İdrislə görüşü haqqında dastan yazıbmış. Bədnam qonşularımız Aşıq Şəmşirin evin də əlyazmaları qorunub saxlanılan dəmir seyfi də güllə boran etdilər. Dədə Şəmşirin əlyazmaları və həmçinin bu dastan da kül olub getdi. Aşıq İdrisin həyat və yaradıcılığını əhatə edən sənədlərin kulliyatının əsas hissəsi isə bədnam qonşularımızın arxivində saxlanır. Təəssüflər ki, bu arxivdə olan material və sənədləri əldə etmək mümkün deyil. Lakin ailə arxivimizdə qorunub saxlanan Aşıq İdris haqqında olan 1938-1941-ci illəri əhatə edən Azərbaycan, rus, erməni dilində olan arayışlardan əldə etdiyimiz məlumata görə Aşıq İdris Azərbaycanın şəhər, rayon, kəndlərini qarış-qarış gəzərək, zəhmətkeş xalq qarşısında konsertlər vermişdir. Bu arayışlardakı maraqlı faktlardan biri də odur ki, orada qeyd olunan yer adları Azərbaycan adlarıdır. Lakin bədnam qonşularımız sonradan o yer adlarını dəyişib erməniləşdiriblər. Bu arayışlardan bizə məlum olur ki, o, ən çox Kəlbəcər, Qubadlı, Laçın, Zəngibasar, Tərtər, Goranboy, Ağcabədi və s. rayonlarında olmuşdur. Həmçinin bu sənədlər onun Basarkeçər rayonunun aşıqlar birliyinin sədri olmasını, incəsənət xadimi fəxri adını almasını da təsdiqləyir. Aşıq İdrisin vala yazılmış səsi də olduğunu söyləyirlər.Təəssüflər ki, bu günə qədər bu valı da əldə edə bilməmişik.

Biz inanırıq yaxın zamanlarda Ali Baş Komandamız Cənab İlham Əliyevin uzaqgörən siyasəti ilə Göyçəmizə qayıdıb,öz elimizdə - obamızda, ata yurdumda babalarımın sazını birdə dinləyəcəyik.

# Dərələyəzli (Çivə kəndi) əmək qəhrəmanı Həsən Hüseynov



**Həsən Abbas oğlu Hüseynov 1 iyul 1924-cü ildə Dərləyaz mahalının Çivə kəndində anadan olub. İlk orta təhsilini Çivə kəndində alıb.**



**Səməd Vəkilov,**
***Tədqiqatçı-hüquqşünas***

Çivə kəndində ona dərs demiş Bilal müəllimi onun yaddaşında dərin iz buraxıb. H.Hüseynov 1944-cü ildə II Dünya müharibəsinə qatılıb. Müharibə bitdikdən sonra 5 ildə hərbi xidmətdə qalıb. Hərbidə Gürcüstan yolunun çəkilişində sona qədər iştirak edib. Hərbi xidmətdən sonra doğma Dərələyəzə Çivə kəndinə qayıdıb. Lakin müharibədə göstərdikləri vətənə sədaqət onları deportasiya edilməkdən xilas etməyib. O, Çivə kəndinin bütün əhalisi ilə birlikdə 1951-ci ildə türk düşməni İ.Stalinin qərarı ilə doğma yurdunu tərk edərək Bərdə rayonuna köçürülmək məcburiyyətində qalıb. Yaşlı atası Kərbəlayi Abbas da daxil olmaqla onların ailəsi bir müddət Bərdə rayonun Kətəlparaq kəndinin klubunda yaşamalı olublar. Sonra həmkəndlilərinin kompakt yaşadığı İmirli kəndinə köçüb. H.Hüseynov 26 yaşında Bərdə rayonu E.Telman adına kolxozda işləyərkən Mingəçevir dənizindən Qarabağ düzünə su çəkiləcəyi barədə məlumat alır. H.Hüseynovun əməksevərliyi onu adıçəkilən tikintidə işləməyə sövq edir. O, Salyan Mexanizmlər Məktəbinin traktorçu kursunu bitirir. Bundan sonra o 1953-1957-ci illərdə "Qarabağmelosu tikinti" trestinin 1 saylı tikinti-quraşdırma idarəsində 1981-ci ildən isə "Bərdəmelio" tikinti-quraşdırma idarəsinin ekskavator maşinist işləyir. H.Hüseynov Yuxarı Qarabağ kanalının tikintisində əvvəldən axıra qədər iştirak edib. O, on kilometrlərlə yaxşı qurulmuş suvarma kanallarını, kollektor-drenaj şəbəkəsi, yüz minlərlə kubmetr torpaq sahəsinin qazıntısında iştirak etmişdir.

Dağlıq Qarabağ suvarma şəbəkəsi, Tərtər, Ağdaş və Ağdərə rayonlarında meliorasiya işləri aparmışdır. Tərtərçay su təsərrüfatı kompleksinin kanallarının tikintisi zamanı tikinti-quraşdırma idarəsinin fəhlələr briqadası Sərsəng SES-dən aşağıda 130 metrlik torpaq bəndi və Madagiz suqəbuledici, bunun sayəsində rütubət çöl rayonlarına 70,2 kilometr uzunluğunda sağ sahil və 22,4 kilometr uzunluğunda olan sol sahil kanalları vasitəsilə daxil olmuş, xüsusilə ekskavatorçu Həsən Hüseynov öz işində fərqlənmişdir.

Qabaqcıl ekskavatorçu maneələr qarşısında dayanmırdı məsələn, o Dağlıq Qarabağda tikinti zamanı, qayalı yerin işi çətinləşdirdiyi yerdə işi asanlaşdırmaq üçün köhnə avtomobil yaylarından vedrə dişləri düzəldirdi, nəticədə ekskavatorların məhsuldarlığı əhəmiyyətli dərəcədə artdı. Bataqlıq ərazilərin qurudulması zamanı Hüseynov şpalların əvəzinə onun layihələndirdiyi iki metal körpüdən istifadə edərək qaldırılması üçün qarmaqlar ilə qalxan, belə ki, ekskavator öz corduroy qoymaq başlamışdır. Melioratorun bu yenilikləri dörd işçini dəzgahda ağır işdən azad etdi. Ekskavator maşinisti IX beşilliyin planını vaxtından əvvəl yerinə yetirmiş - nəzərdə tutulan 929 qrunt əvəzinə 1,5 milyon kubmetr torpaq emal etmişdir. 1975-ci ilə qədər isə 1976-cı ilin planını artıq 1,5 dəfə artıqlaması ilə yerinə yetirmişdir. Rasional yanacaq sərfiyyatı və vaxt itkilərinin azaldılması hesabına 5 min rubldan çox qənaət edildi. Beşilliyin sonuna kimi Hüseynov Bərdə rayonunun "Sosializm" və "Azərbaycan" kolxozunun tarlalarında drenaj şəbəkələrinin çəkilişində işləyib. 3 ildə Həsən Hüseynov 10-cu beşilliyin planını vaxtından əvvəl başa vurdu, Meliorator fəaliyyət göstərdiyi müddətdə 1 milyon kubmetr torpaq emal edib, 11,6 ton yanacağa qənaət edib. 1981-ci ilə qədər o, XI beşillik planın əhəmiyyətli hissəsini artıq yerinə yetirmişdi. Həsən Hüseynov özünü zəhmətkeş və çox tələbkar işçi kimi göstərmişdir. Müəssisədə işlədiyi ilk iki ildə o skreperlərin mürəkkəb mexanizmini idarə etməyi öyrənənərək ekskavatorları qəbul etdi, Hüseynov tez sükan arxasına keçdi, onların texnologiyasını tez və hərtərəfli mənimsədi, dəzgahın bütün sirlərini diqqətlə öyrəndi. H.Hüseynova bu peşəni sevdirən ilk müəllimi Sosialist Əməyi Qəhrəmanı Məcid Şərifzadə olub. Hüseynova texnika sevgisini aşılayan da məhz o olub. Sonra Hüseynov özüdə ixtisaslı fəhlə kadrlarının yetişdirilməsi ilə məşğul olub. İlk tələbələri həmin SMU-da işləyən qardaşları İsmayıl və Şamxor Su Elektrik Stansiyasının tikintisində işləyən Süleyman, və oğlu Oruc olsa da sonradan onun tələbələrin sayı 20-dən çox olur, onların arasında qonşu SMU və PMK-nın işçiləri də var idi. Bütün dövr ərzində o 70-dən çox gənc mütəxəssis hazırlayıb. SSRİ Ali Soveti Rəyasət Heyətinin 6 may 1977-ci il tarixli Fərmanı ilə Tərtərçay Su Təsərrüfatı Kompleksinin tikintisi zamanı böyük istehsalat uğurlarına və göstərdiyi əmək şücaətinə görə Hüseynov Həsən Abbas oğlu Lenin ordeni və "Çəkic və Oraq" qızıl medalı təqdim edilməklə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür. 7 noyabr 1981-ci il tarixində Həsən Hüseynov SSRİ Dövlət Mükafatına layiq görülüb. 2002-ci ildə Azərbaycan Respublikası Prezidentinin Fərdi Təqaüdünə layiq görülüb.Azərbaycanın ictimai həyatında fəal iştirak etmişdir. 1959-cu ildən Sov.İKP üzvü. Sov.İKP-nin 27-ci və Azərbaycan Kommunist Partiyasının 28-ci qurultaylarının nümayəndəsi, Bərdə rayon komitəsinin büro üzvü. Dəfələrlə rayon Sovetlərinə deputat seçilmişdir..

Ağır təbiəti, təvəzökarlığı ilə seçilən Həsən Hüseynov milli və dini dəyərlərə bağlı şəxsiyyət olub. SSRİ dövlətinin ən yüksək adlarını daşımasına baxmayaraq heç vaxt bu adlardan sui-istifadə etməyib. O, 1953-cü ildə Şərur rayonunun Ələkli kəndindən olan Huseynova Zeynəb Bəylər Qızı ilə ailə qurub. Bu nigahdan onların 7 övladı olub.

Qızı Bəsti Hüseynova ali təhsilli həkim kimi uzun illərdi Bərdə rayonun müxtəlif kəndlərində tibb məntəqələrinə rəhbərlik edir. Oğlu Oruc Hüseynov hazırda onun işin davam elətdirir. Digər oğlu İslam Huseynov I Qarabağ savaşında iştirak edib, II qrup müharibə əlilidir.

Sosialist Əməyi Qəhrəmanı Həsən Hüseynov 21 iyun 2003-cü Bərdədə dünyasını dəyişib.

# Mən müəllim nəvəsi müəlliməm!

***Qərbi Azərbaycan bizim ata-baba yurdumuzdur. Mən də bu yurdu görməyən nəvə-nəticələrdən biriyəm. Buna baxmayaraq, hər qarışını bilirəm. Bunun birinci səbəbi vətən sevgisi və həsrətilə yaşayan atamdır. Atam da, babam kimi, Vedibasar mahalı Şidli kəndində anadan olub. Babam doğulduğu Şidli kəndində birinci sinfə başlayıb, yeddiillik sinfi bitirdikdən sonra onuncu sinfi Şərur rayonunda bitirib.***

Onun təhsil dövrü İkinci Dünya müharibəsinə təsadüf edir. Burada atası və əmisi İkinci Dünya müharibəsində vuruşur. Bunlar babamın təhsilini davam etdirməsinə manеə olmur. Səsi gözəl olan babam Bakıda konservatoriyaya qəbul olur. Molla ailəsində doğulması bu arzusunu yarım qoyur, lakin bu, babamı ruhdan salmır və sənədlərini İrəvan Pedaqoji Məktəbinə verir. İmtahandan yaxşı qiymət alaraq bu məktəbə qəbul olur. Pedaqoji Məktəbi bitirdikdən sonra Məhərrəm müəllim Şidli kənd məktəbində ibtidai siniflərə dərs deyir, həmçinin sinif rəhbərliyi edir. Məktəbdə Azərbaycan dili və Ədəbiyyat fənlərini, bununla birlikdə gözəl səsi olduğu üçün nəğmə dərsini də Məhərrəm müəllim tədris edirdi. Çox mülayim bir insan idi, bir o qədər də tələbkar idi. Atamın dediyinə görə, əgər dərsi babamın istədiyi kimi öyrənməsək, gecə yatmağa icazə vermirdi. Nə vaxt ki dərslərimizi bitirirdik, o vaxt bizi istirahət etməyə qoyardı. Bir qalırdı məktəbdə də eyni qaydada cavab vermək - ən vacib hissə bu idi. Təhsilə verdiyi qiymətə görə, şagirdləri onu çox istəyirdi. 1988-ci il hadisələrində deportasiyaya məruz qalan Məhərrəm müəllim Şuşa şəhəri məktəbinə göndəriş alır. 1 il burada işlədikdən sonra ailəsi ilə birlikdə Bakı şəhərinə köçür. Göndərişi isə Xızı rayonuna verilir və tədris illəri elə burada yekunlaşır. Məhərrəm müəllim Bakıya qayıdır, burada dini mütaliələr və şairliklə (heca vəznli şeirlər) məşğul olur. Bu illərdə Birinci Qarabağ müharibəsi ərəfəsi olur. Və o xəbər gəlir... "Oğlun şəhid olub, Məhərrəm müəllim".

Həyatı başladığı gündən 27 il sonra başa çatdı. Nənəmin bu hadisələrdən ürəyinə dağ çəkilir. O, oğlunun bu xəbərindən fəryada boğulur. Özü də oğlu ad günündə şəhid olmuşdu. Axı şəhid oğlunun da iki balası var idi. Komandir Nəriman erməni və rus dilini yaxşı bildiyi üçün müharibədə könüllü olaraq kəşfiyyatçı kimi yer alır.

Nərimanın səsi gah Turşsudan, gah Nəbilər kəndindən, gah da Ağdərədən gəlirdi. Ağdərə döyüşləri zamanı ayağından yaralanan Nəriman müalicəsini Bakı şəhərində alır. Sağalan kimi yenidən döyüş bölgəsinə yollanır. Baxmayaraq ki, ona artıq evinə dönməsi təklif olunur, o bu təklifi geri çevirir. "Gəlin Seyidəhmədli kəndini düşməndən azad edəyin, bu siz tərəfdən mənim Ad Günümə hədiyyəniz olsun, dostlarım. Bundan böyük hədiyyə ola bilməz", - Nəriman deyir.

Bir neçə saatlıq döyüşdən sonra ermənilәri vurub Seyidəhmədli kəndindən çıxardan döyüşçülərimizin sevincinin həddi-hüdudu yox idi. Qarşıya qoyulan məqsədə çatmışdılar. Ağaclar çiçəklənmişdi. Hər tərəf gül-çiçək içində idi. Nəriman böyük bir ağacın altında oturub kürəyini ağacın gövdəsinə dayamışdı. Bir neçə əsgəri də döyüşdən sonra onun ətrafında uzanıb siqaret çəkirdi. Nəriman da bir siqaret yandırıb bir-iki qullab çəkib deyir: "Dostlar, əgər mən bu döyüşdə sizin yanınızda olmasaydım, indi sizin üzünüzə necə baxardım?.." Bu vaxt düşmən snayperindən açılan atəş Nərimanın düz alnının ortasından dəyir. Onun əlində siqareti, ağzında sözü yarımçıq qalır. Bu da ermənilərin Nərimana ad günü hədiyyəsi oldu. Ad gününü qeyd eləmək Nərimana qismət olmasa da, Fəxri Xiyabanda dəfn olunmaq, şəhidlik zirvəsinə ucalmaq kimi fəxri ad ona qismət olur. Müəllifləri Bilman Qüdrət və Ülvi Nağıyev olan "İtirilmiş Yurd yerimiz, Şidli kəndi" kitabında "Ad günündə Şəhid oldu Nəriman" adlı şeir yer alır.



**Zəhra Allahverdiyeva,**
***Azərbaycan Dövlət Pedaqoji Universiteti, Filologiya fakültəsi, Xarici dil müəllimliyi (Fransız dili) ixtisası, FRD2209B qrup tələbəsi***

Babam Məhərrəm Allahverdiyev Təvəkkül oğlu (təxəllüsü Məhərrəm Təvəkkül oğlu) da şeirlərində şəhid oğlundan söz açırdı.

Həmin şeirdən bir bənd:

*Ürəyim dərdlidi, gözüm dumanlı,*
*Dağılıb yox olsun, belə zamanı.*
*İtirdim gül üzlü, cavan balamı,*
*Elimdən aralı gülə bilmirəm.*
***(Bilmirəm - Məhərrəm Təvəkkül oğlu)***

Səmimi insan, gözəl müəllim Məhərrəm müəllim doğulduğu kəndinə geri dönməmişdi, son günlərinə kimi doğma yurd həsrətilə yaşamışdı. Babam elə Bakı şəhərində dünyasını dəyişdi.

Yurdu haqqında qələmə aldığı şeirini sizə təqdim edirəm:

## Şitti (Şidli)

*Sol yanın Boralan, sinən Ağrıdı,*
*Günün toy-bayramla keçirdi, Şitti.*
*Güllü yaylaqlarda, buz bulaqlarda*
*Suyunu ləzzətlə içirdim, Şitti.*
*Başından aşırdı varın, dövlətin,*
*Vedi mahalında vardı hörmətin,*
*Halal yaşamaqdı sənin niyyətin,*
*Xeyir-şəri ölçüb-biçirdi Şitti.*

*Kasıba, yoxsula olurdu kömək,*
*Qərib adamlara verərdi yemək.*
*Dolanıb firavan, bilməzdi ölmək,*
*Süfrəni kasıba açırdı Şitti.*

*Məhərrəm, qəm yemə, ümidlə yaşa,*
*Artıq yetmiş yaşı vurmusan başa.*
*Dərdin, qəmin getsin dağlara, daşa,*
*Qisas almaqçün köçübdü Şitti.*

***(Məhərrəm Təvəkküloğlu.***
***"Ulus" qəzeti***
***2002-ci il 13 dekabr***
***№89 (244).***

**Təsisçi və Baş redaktor**
**Mahirə Hüseynova**
***Baş redaktorun müavini***
**Leyla Calalova**
***Məsul katib***
**Möhübbət Məmmədov**

Redaksiya heyəti:
**İbrahim Bayramov**
**Könül Həsənova**
**Səməd Vəkilov**
**Fərrux Rüstəmov**
**Cəlal Allahverdiyev**

Azərbaycan Respublikası Medianın İnkişaf Agentliyi Media Reyestri Şəhadətnaməsi
Qeydiyyat:
№: CA61EF8114733BA

**Ünvanımız:**
Bakı şəhəri, Ü.Hacıbəyov küçəsi 68

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində ofset üsulu ilə çap olunmuşdur.
**Tiraj: 200 Sifariş: 915**